www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 iyun 2015-ci il Çərşənbə № 119 (6147) Qiymәti 40 qәpik

**Xəbər**

## Biznesmen məmurlar və deputatların gizli planı üzə çıxdı

yazısı səh.5-də

**Gündəm**

### Qarabağ məsələsində iyun dönüş ayı olacaq?



Rusiyanın Azərbaycana Qarabağ vədi verdiyi deyilir; Putinin qarşıdakı Bakı səfəri tarixə düşə bilər, əgər...

yazısı səh.11-də

### Ali Məhkəmə də NİDA-çıların şikayətini təmin etmədi

yazısı səh.7-də

### Manatın devalvasiyasından... turistlər qazanacaq

yazısı səh.10-da

### Gəncədə Rəsulzadənin büstünü yenidən çuvala saldılar

yazısı səh.7-də

### Yerkökü xərçəngi müalicə edir, amma...

yazısı səh.14-də

*Ekspert:*

### "Banklar əvvəl-axır birləşməli olacaqlar"

yazısı səh.12-də

### 8 azərbaycanlı Gürcüstandan sığınacaq istədi

yazısı səh.3-də

### Rusiyada miqrantlara qan udduran skinhedlər hara yoxa çıxıb?

yazısı səh.13-də

### SOCAR 400 milyonluq müqavilədən imtina etməyəcək

yazısı səh.8-də

### Qazaxda "bank qurbanları" aclıq aksiyasına başlayıblar

yazısı səh.12-də

### Etiraz aksiyasına görə islamçılar ofislərindən çıxarıldı

yazısı səh.4-də

**Vaşinqtonla rəsmi Bakının münasibətlərində görünməmiş olay**

# ABŞ-IN BAKIDAKI ENERJİ TƏDBİRİNƏ QARŞI DE-MARŞI

Amerika prezidenti son illərdə ilk dəfə olaraq "Caspian Oil and Gas" sərgisinə təbrik məktubu göndərmədi; Xəzər regionunun əsas neft-qaz layihələrinə və enerji təhlükəsizliyinin təminatına həsr olunan ən yüksək səviyyəli tədbirə okeanın o tayından rəsmi nümayəndə də gəlmədi




yazısı səh.5-də

# "Oliqarxqeyt həbsləri" barədə yeni şok bilgilər

Bir neçə məmur və deputat övladı kredit borcunu qaytardıqdan sonra azad olunublar; Cahangir Hacıyevin yeri bilindi; əmlakını satışa çıxaranlar kimlərdir...

yazısı səh.8-də



### Məmməd İsmayılın Müsavatdan istefasına reaksiya gəldi

yazısı səh.7-də



*Anar Nağılbaz:*

### "Balalarıma gün ağlamağa ehtiyacım var"

yazısı səh.10-da



Kamandar Nəsibov

### Həbsdə olan bank müdirinin vəkilindən ilginc açıqlamalar

yazısı səh.3-də

**3 iyun 2015**



## Prezident milli mətbuatın 140 illiyi ilə bağlı sərəncam verdi

**Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının 140 illiyinin keçirilməsi ilə bağlı sərəncam verib. Sərəncama əsasən, Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycanda geniş qeyd olunacaq.**

Prezident Administrasiyasına tapşırılıb ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin, jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

## Nemtsovun qızı Putinə savaş açdı



**Qətlə yetirilən müxalifətçi lider Boris Nemtsovun qızı Janna Nemtsova atasının təqib edilməsində məsuliyyət daşıyan və ölümündə günahkar olan Rusiya jurnalistlərinin siyahısını Polşa Senatının marşalı Boqdan Boruseviçə verib. Aznews.az xarici mediaya istinadən xəbər verir ki, o, Polşa hökumətindən sözügedən şəxslərə qarşı Avropa İttifaqının sanksiyalar tətbiq etməsində yardımını xahiş edib.**

Məlumata görə, sənəddə hakimiyyət tərəfindən nəzarət edilən 8 jurnalistin adı yer alıb.

Bu siyahıya Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinin direktoru Oleq Dobrodeyev, NTV-nin direktoru Vladimir Kulistikov, "Rossiya seqodnya" informasiya agentliyinin rəhbəri Dmitri Kiselyov, jurnalistlər - Arkadi Mamontov, Konstantin Semin, Vladimir Solovyov və Andrey Karaulov , eləcə də Rusiya Dövlət Dumasının deputatı və teleaparıcı Aleksey Puşkovun adı daxil edilib.

"Boris Nemtsovun qətlinə görə onu KİV-lərdə təqib edənlər və damğalayanlar məsuliyyət daşıyır. Hakimiyyətin nəzarətində olan bu jurnalistlər Vladimir Putinin siyasətindəki rüşvətə və Ukraynada apardığı müharibəyə qarşı fəaliyyətinə görə Nemtsovu "satqın", " beşinci kolon" və "Rusiyanın düşməni" adlandırıblar.", - deyə Senatın marşalı Boqdan Boruseviçə ünvanlanan məktubda bildirilib.

Nemtsovun qızının fikrincə, bu yazılanlar jurnalistikadan tamamilə uzaqdır: "Bu nə jurnalistika, nə də söz azadlığı deyildi. Bu, dövlət tərəfindən dəstəklənən ölümə təhrik idi".

Nemtsova vurğulayıb ki, Boris Nemtsov özü 2014-cü ilin mayında Qərb liderlərini Putin təbliğatçılarına qarşı viza sanksiyalarının tətbiq edilməsinə çağırıb. Siyasətçinin qızı bildirib ki, bütün bunlara baxmayaraq, bu insanların əksəriyyəti asanlıqla Qərbə gedə bilir. Nemstova bu hadisənin yolverilməz olduğunu hesab edir. "Bu, xüsusilə də insanları mənim atamın ölümünə təhrik edən hakimiyyət təbliğatçılarına qarşı yolverilməzdir", -deyə məktubda qeyd olunub.

Xatırladaq ki, Nemtsov bu il fevralın 27-də qətlə yetirilib.

## Putin Bakıdakı Avropa Oyunlarından danışdı



**Bakıda keçiriləcək I Avropa Oyunlarında 31 yarışma var. Həm də onların 11-i Braziliya Olimpiadası və Paralimpiadaya seçimdir. Və bizim atletlərin hazırlığı artıq indidən yüksək səviyyədə olmalıdır.**

Oxu.az Kremlin rəsmi saytına istinadla xəbər verir ki, bu barədə Rusiya Federasiyasının prezidenti Vladimir Putin bədən tərbiyəsi və idmanın inkişafı üzrə Şuranın iclasında bəyan edib.

## AŞ PA-nın Qarabağ üzrə məruzəçisi Türkiyə vətəndaşı oldu

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Siyasi İşlər və Demokratiya Komitəsinin Dağlıq Qarabağ münaqişəsi məsələsi üzrə məruzəçisi Türkiyə vətəndaşı oldu. Avropa.info xəbər verir ki, bir neçə gün bundan qabaq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu AŞPA-nın məruzəçisi Robert Valterə Türkiyə Cümhuriyyətinin vətəndaşlığını təsdiq edən sənədi təqdim edib.**

Rəsmi səfər çərçivəsində Londonda olan Mövlud Çavuşoğlu AŞPA-nın məruzəçisi və İngiltərənin sabiq millət vəkili Robert Valteri Türkiyə vətəndaşı olması münasibətilə təbrik edib və onun bu addımını böyük sevinclə qarşılayıb.

# İsveçdə uydurma "erməni soyqırımı"na abidə qoyulmasının qarşısı alınıb

**İsveç Krallığının iki şəhərindən birində ermənilərin uydurma "soyqırımı"na abidə ucaltmasının qarşısı alınıb, digərində isə bununla bağlı məhkəmə işi başlayıb.**

İsveç Türk Federasiyasının rəhbəri Həsən Dölәkin APA-ya verdiyi məlumata görə, Södertelye (Södertalje) şəhərində bələdiyyənin saxta "soyqırımı" abidəsinin qoyulmasına icazə verməsinə baxmayaraq, məhkəmə yolu ilə bu cəhdin qarşısı alınıb. O bildirib ki, ermənilər növbəti dəfə İsveçin iri şəhərlərindən biri olan Nörrköpingdə abidə ucaltmaq üçün rəsmi razılıq alıblar: "Şəhərin mərkəzində abidə ucaltmaq istəyirlər.



Biz məhkəməyə müraciət etmişik. Əminəm ki, bu cəhdin də qarşısını alacağıq".

H.Dölək onu da əlavə edib ki, bu işdə Azərbaycan diasporu onlara yaxından dəstək verir.

Baku 2015
1st EUROPEAN GAMES

## Avropa Oyunları üçün hansı biletlər qalıb?

**Birinci Avropa Oyunlarının açılış mərasimi üçün nəzərdə tutulan biletlərin 80 faizi artıq satılıb.**

Bu barədə "Trend"-ə Bakı-2015 Avropa Oyunları Əməliyyat Komitəsindən məlumat verilib.

Qeyd olunub ki, bütün sektorlar üzrə, əsasən də 200 AZN-lik biletlər tamamilə satılıb. Hazırda satışda 100 AZN və 50 AZN dəyərində biletlər var, lakin 20 AZN-lik biletlər tamamilə satılıb.

Ən çox hansı idman növü üzrə biletlərin satılması məsələsinə gəlincə isə bildirilib ki, gimnastika, güləş, üzgüçülük və boks idman növləri son dərəcə məşhurdur, lakin bəzi yarışlar üçün biletlərimiz hələ də qalıb. Mingəçevir şəhərində bir həftə əvvəl bilet satış mərkəzinin açılmasından sonra insanlar avarçəkmə yarışlarına böyük maraq göstərirlər.

Ümumilikdə biletlərin necə faizinin satılması məsələsinə gəlincə isə bildirilib ki, hər gün dəyişir, lakin rəqəmlər çox ürəkaçandır. Azərbaycanlılar şəhərdə yerləşən satış məntəqələrində, məsələn, Park Bulvar, 28 Mall, Metro Park və bir çox köşklərdə üstünlük təşkil edirlər. Yalnız yarışları deyil, eləcə də Bakının əfsanəvi qonaqpərvərliyini səbirsizliklə gözləyən xarici qonaqlar isə daha çox onlayn bilet əldə edirlər.



## "Azərbaycana qolf oynamağa gəlmişəm" - İbrahimoviç

**Azərbaycana gələn İsveç millisinin və Fransa " PSJ" futbol klubunun ulduz futbolçusu Zlatan İbrahimoviç səfərin səbəbini Türkiyənin "Milliyet" qəzetinə açıqlayıb. AzNews.az futbolinfo.az-a istinadən xəbər verir ki, o, "Qalatasaray"a transfer olub-olmayacağına da aydınlıq gətirib: "Geridə qalan mövsüm bizim üçün uğurlu oldu. Hələlik gələcək karyeramla bağlı hər hansı plan qurmamışam. "Qalatasaray"a tranfser olmayacam. İstanbula, sadəcə, Bakıya getmək üçün gəlmişəm. Azərbaycanı qolf oynamaq üçün seçdim".**

Qeyd edək ki, İbrahimoviç ölkəmizə Azərbaycan Beynəlxalq Ov Həvəskarları Klubun rəhbərləri Faiq Babanlı və Asif İlyasovun dəvəti ilə gəlib.

"Bakı-2015" I Avropa Oyunları Əməliyyat Komitəsinin (BEGOC) baş icraçı direktoru, gənclər və idman naziri Azad Rəhimov da report-a açıqlamasında İbrahimoviçin gəlişinə münasibət bildirib: "Zlatan İbrahimoviç Bakıya BEGOC-un yox, şəxsi dəvətlə gəlib".

Nazir futbolçunun indiyədək BEGOC-da olmamasından təəssüflәndiyini də vurğulayıb.

Qeyd edək ki, 1 həftəyə yaxın ölkəmizdə qalmağı planlaşdıran 33 yaşlı hücumçu bir neçə bölgəmizi də gəzəcək. Səhər saatlarında Bakıya gələn Zlatan daha sonra Şamaxıya yola düşüb. Burada onu kababa qonaq ediblər. İbrahimoviçin Qəbələyə ziyarət etməsi də planlaşdırılır. Onun ölkəmizə ov etmək məqsədilə gəlməsi isə, demək olar ki, öz təsdiqini tapıb.

## Vəkil Leyla Yunusla görüşüb

**Vəkil Elçin Qəmbərov Sülh və Demokratiya İnstitutunun həbsdə olan direktoru Leyla Yunusla görüşüb. Bu barədə APA-ya məlumat verən E. Qəmbərov bildirib ki, L. Yunusun səhhətində problemlər var: "İstintaqla bağlı hər hansı yenilik yoxdur. Görüşüb söhbət etdik. Səhhətindəki problemlər hələ də qalır".**

Qeyd edək ki, ötən il iyulun 30-da Nəsimi Rayon Məhkəməsinin qərarı ilə Sülh və Demokratiya İnstitutunun direktoru, hüquq müdafiəçisi Leyla Yunus barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 178.3.2-ci (Dələduzluq (külli miqdarda ziyan vurmaqla törədildikdə)), 192.2.2-ci (Qanunsuz sahibkarlıq (külli miqdarda gəlir əldə etməklə törədildikdə)), 213.2.2-ci ((Vergi ödəməkdən yayınma) külli miqdarda törədildikdə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işi başlanılıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Milli Məclisə seçkilər noyabrın 1-də keçiriləcək

**Məlum olduğu kimi, bu il Azərbaycanda Milli Məclisə (MM) seçkilər keçiriləcək.**

"Report" xəbər verir ki, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin 2-ci bəndinə əsasən, Milli Məclisin hər çağırışının seçkiləri noyabr ayının birinci bazar günü keçirilir.

2015-ci ilin noyabrın ilk bazar günü ayın 1-nə təsadüf edir. Buna görə də MM-ə seçkilərin noyabrın 1-də keçirilməsi gözlənilir.

Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən sayta bildirilib ki, rəsmi olaraq Milli Məclisə seçki təyin edildikdən sonra MSK-nın iclası keçiriləcək və müvafiq qərar veriləcək.



## Cahangir Əsgərov mətbuat xidmətinə yeni rəhbər təyin etdi

**Paşa Kəsəmənski "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) prezidentinin ictimaiyyətlə əlaqələr üzrə köməkçisi təyin edilib.**

QSC-nin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, o, iyunun 2-dən vəzifəsinin icrasına başlayıb.

P.Kəsəmənskinin Azərbaycan mətbuatında böyük iş təcrübəsi var. O, bu vəzifəyə təyin edilməzdən əvvəl "Trend" informasiya agentliyinin baş direktorunun müavini vəzifəsində çalışıb.

### Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər İsgəndər Həmidova əzizi Tofiq bəyin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

****

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı İsgəndər Həmidova əzizi Tofiq bəyin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Ata-anasını Xocalıda itirən məcburi köçkün Azərbaycanı tərk etmək istəyir

### Samir İbrahimov: "Bu ölkədə yaşamaq istəmirəm"



Samir İbrahimov

**Xocalıdan olan məcburi köçkün, iki valideynini də məlum faciədə itirən Samir İbrahimov Azərbaycan vətəndaşlığından imtina etmək istəyir. Hazırda evsiz, işsiz vəziyyətdə yaşayan Xocalı sakininin ailəsi acınacaqlı durumdadır. Şikayətini yuxarı orqanlara çatdırmaq üçün Samir İbrahimov "Yeni Müsavat"dan kömək istəyib.**

Şikayətçi başına gələnləri bizə belə nəql etdi: "6 yaşımda olarkən Xocalı işğal olundu. Ata-anamı orada itirdim. Atam döyüşlərdə həlak oldu. Anam isə, itkin düşdü. Hələ də xəbər tuta bilmirik. Gürcüstanda nənəmin yanında yaşadım. 2008-ci ildə Azərbaycana qayıtdım. Gələn kimi məni əsgər apardılar. Hərbi xidmətdən qayıtdıqdan sonra ağır həyatım başladı. Qardaşım ailəsi ilə çöllərdə qalıb. Heç kəsin vecinə deyil. Özüm də ailəmlə Kənd Əhmədlidə kirayədə qalıram. İşsizəm. Hara müraciət edirəmsə, cavabsız qalır. Heç yerdən köməklik yoxdur. İcra hakimiyyəti də bu məsələyə susur. Özüm Nizami rayonunda qeydiyyatdayam. Xəstəyəm. Həyat yoldaşım da xəstədir. Müalicə olunmağımızla bağlı aidiyyəti orqanlardan kömək istədim. Məhəl qoyan olmadı. Şəhid ailəsinə belə hörmətsizlik olarmı? Atam bu torpaqlar uğrunda canını qurban verdi. Amma bu gün bizə qiymət vermirlər. Şəhid ailəsi olaraq, bizə baxılmır. 18 manat çörək pulu verirlər. "QAÇQINKOM" bu məsələdə susur. Əslinə qalsa, biz şəhid ailələri ilə bu qurum maraqlanmalıdır, qayğımıza qalmalıdır. Amma əksi baş verir".

Samir İbrahimov ölkə vətəndaşlığından imtina edəcəyini söylədi: "Birdəfəlik Azərbaycandan getmək istəyirəm. Bu ölkədə yaşamaq istəmirəm. Artıq mümkünsüz görünür. Başqa ölkəyə gedəcəm. 18 manatla ailə dolandıra bilərəm? Mehdiabaddan ev verdilər. Birinci mərtəbədə idi. Otağın üzü nəm olurdu. Yaşamaq mümkün deyildi. Otağa su axırdı. İmtina etdim. Kimin pulu oldusa, yaxşı yerdən aldı. Hətta ikiotaqlı ev düşən şəxs, pulunun gücünə otaqlarının sayını artırdı. Verdikləri evdə həyat yoldaşım ağır xəstəliyə düçar oldu. Kirayədə qaldığım evin sahibi çox vaxt körpə uşaqlarım olduğuna görə pul almır. Müraciətim ölkə başçısınadır. Mənə kömək edin. Hər yerdən artıq əlim üzülüb. Ya kömək edilsin mənə, ya da ölkədən çıxmağıma şərait yaradılsın. Canlarını şəhid ailələrindən qurtarmaq istəyirlərsə, mənə ölkədən çıxmağıma kömək etsinlər. Onda bir şəhid ailəsindən azad olarlar".

❑ **Cavanşir ABBASLI**

## 8 azərbaycanlı Gürcüstandan sığınacaq istədi

**Bu ilin yanvarından aprel ayına qədər 717 xarici vətəndaş Gürcüstandan sığınacaq istəyib. Azvision.az "Sputnik Qruziya"ya istinadən xəbər verir ki, sığınacaq istəyən xaricilərdən 8-i Azərbaycan vətəndaşıdır.**

Gürcüstan DİN-in yaydığı məlumata görə, bu ölkədən ən çox sığınacaq istəyən şəxslər İraq vətəndaşlarıdır. Onlardan 202-i kişi, 82-i isə qadındır.

İkinci pillədə isə Ukrayna qərarlaşıb. İlin əvvəlində 263 Ukrayna vətəndaşı sığınacaq almaq məqsədilə Gürcüstana müraciət edib ki, onlardan 167-i qadın, 96-ı isə kişidir.

Siyahıda üçüncü və dördüncü pillələri müvafiq olaraq İran (15 kişi və 13 qadın) və Rusiya (17 kişi və 11 qadın) vətəndaşları tutur.

Cənubi Qafqaz ölkələrinə gəldikdə isə 4 Ermənistan və 8 Azərbaycan vətəndaşı Gürcüstandan sığınacaq almaq məqsədilə müvafiq icazə istəyib.

## Həbsdə olan bank müdirinin vəkilindən ilginc açıqlamalar

### Vəkil Kamandar Nəsibov: "Adil Hüseynova qarşı irəli sürülən ittihamda söhbət 319 milyona yaxın məbləğdən gedir"

**Vəkil Kamandar Nəsibov "Amerikanın səsi"nə müsahibəsində son zamanlar kredit borcları ilə bağlı dindirilmələr, həbslərdən danışıb. O, Beynəlxalq Bankın Dubay nümayəndəsi Adil Hüseynovun həbsini qanunsuz sayır: "Hazırda Adil Hüseynov Bakı İstintaq Təcridxanasına keçirilib.**

Ondan öncə təxminən on gün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılmışdı. Hesab edirəm ki, orada da onu 48 saatdan çox saxlaya bilməzdilər. Lakin təxminən 10 günə yaxın orada saxladılar. Onun üçün həmin şərait bir az ağır idi. Çünki cərrahi əməliyyatdan təzə çıxmışdı. İndi isə təcridxanadadır. Onun saxlanma səbəbinə gəlincə, hesab edirəm ki, onun dediyinə görə, buna deyirdilər pulu qaytar. Ona qarşı irəli sürülən ittihamda söhbət 319 milyona yaxın məbləğdən gedir. Gülməli məsələdir, o pulu haradan qaytarsın? Çünki o özü onlara deyir ki, mən pulun üzünü görməmişəm. Pullar hamısı köçürmə yolu ilə gedirdi. Beynəlxalq Bankdan kreditlər verilən şirkətlərin adına onların banklarına, bankdan da gedirdi avadanlıq alınmağa, digər xərclər, işçilərin maaşı və s. məsələlərlə bağlı həmin zavodun tikilişi ilə, həmin tekstil fabriki ilə bağlı olan məbləğlərdir. Onu qaytarmaq qeyri-mümkündür. Zavodlar orada durur. Sahibi gedib satıb o, pulu qaytara bilər".



Kamandar Nəsibov

"Adil Hüseynovun maliyyələşdirilməsinə nəzarət etdiyi tekstil və metaltökmə zavodlarının sahibləri kimdir?"sualına vəkil belə cavab verib: "Adil Hüseynovun mənə dediyinə görə, həmin zavodların sahibləri hazırda internet şirkətidir. Həmin şirkətin də 50 faizi Hüseyn Marayev (çeçen əsilli Rusiya vətəndaşıdır) adlı bir şəxsin 100 faizli sahibi olduğu "Golden Bat" şirkətinə, digər 50 faizi isə Fransa vətəndaşı Xəqani Bəşirovun 100 faiz sahibi olduğu Böyük Britaniyada qeydiyyatdan keçmiş "Camelot Oil and Gaz" şirkətinə məxsusdur".

Kredit borcları ilə bağlı neçə nəfər həbsdə olmasına gəlincə, vəkil bunları deyib: "Ümumi söhbət 6 milyard yarımdan gedir. Həmin məbləğ dairəsində adamlar çağırılır, saxlanılır, həbs olunur və sairə. İndi o məbləğlər tam şəkildə qaytarılmayan məbləğlərdir, ya ümumi verilən məbləğdir, bu hələ heç kimə məlum deyil. Mən elə başa düşürəm, onu istintaq özü də hələ tam bilmir ki, onlara verilən rəqəm hansıdır. Çünki onların əlində də tam şəkildə sənədlər yoxdur. Onlara Beynəlxalq Banka hazırda rəhbərlik edən Emil Mustafayev tərəfindən o siyahılar verilir, siyahılarda göstərilir ki, filankəs filan şirkətdən filan qədər məbləğ alıb. Eyni zamanda bir məsələni də nəzərinizə çatdırmaq istəyirdim ki, orada Adil Hüseynovla bağlı yalnız bir şirkətdir. O, orada bir şirkətin sahibi kimi keçir, o da Beynəlxalq Bank rəhbərliyinin verdiyi göstəriş əsasında həmin şirkət açılıb və kredit ayrılıb. Digər 5-6 şirkətin isə, ümumiyyətlə, Adil Hüseynova aidiyyəti yoxdur. Yalnız bir şirkətə 20 milyondan bir az artıq buraxılan məbləğ Adil Hüseynovun sahibliyinə gedir".

Vəkil deyib ki, iş üzrə dindirilənlərin sayı yüzlərlədir: "Mən eşitdiyimə görə, hətta orada böyük məbləğ olmayan kredit alanları da çağırırlar. Kredit müddəti keçməmiş şəxslərdən də həmin kreditlərin qaytarılması tələb edilir. Halbuki kredit müddəti keçməyib və onların hələ vəsaiti ödəməyə vaxtları var. Ümumiyyətlə, nəzərinizə çatdırım ki, bu hal qeyri-adi haldır. Çünki kredit müqaviləsinə görə, adama cinayət işi qaldırılması, özü də Cinayət Məcəlləsinin 178.3.2 maddəsi (dələduzluq) ilə cinayət işi qaldırılması qeyri-mümkündür. Söhbət ondan gedir ki, kredit alınıbsa, təyinatı üzrə xərclənməyibsə belə Cinayət Məcəlləsində tamamilə başqa maddədir. Amma 178-ci maddə deyil də bu."

## Kreditlərə görə həbsdə neçə nəfər qalıb?

### Beynəlxalq Bankdan götürülən kreditin məbləğinin 6-8 milyard manat olduğu deyilir

**Son ayların ən səs-küylü siyasi hadisələrindən biri ölkənin ən zəngin oliqarxlarının "maliyyə xəyanəti" ittihamı ilə həbs edilməsi oldu. Dövlət vəsaitlərini mənimsəməkdə ittiham olunanlardan bir qismi ilk istintaqdan sonra borcunu verib, sərbəst qalsalar da, bəziləri həbsdən yaxasını qurtara bilmədi. Maraqlısı isə odur ki, Beynəlxalq Bank qalmaqalı ilə bağlı həbs olunan oliqarxların sayı açıqlanmır.**

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Beynəlxalq Bankından milyardlarla manat vəsaitin kreditlər yolu ilə mənimsənilməsi işi üzrə apardığı kütləvi həbslər yarımməxfi şəraitdə həyata keçirilir. Qeyri-rəsmi məlumatlara görə, 70-ə yaxın nüfuzlu iş adamı həbs olunub.




Ekspertlər isə qeyd edirlər ki, bu məsələ hələ də kifayət qədər müəmmasını saxlayır. Prosesin üzərində ciddi sirr pərdəsi var. APA-nın məlumatında deyilir ki, 43 nəfər bu olayla bağlı həbsdən buraxılıb. Onlar üst-üstə gecikdirilmiş kredit borcuna görə cəmi 110 milyon ödəyiblər. Lakin Beynəlxalq Bankdan götürülən kreditin məbləğinin 6-8 milyard manat olduğu deyilir. Bəzi mənbələrdə isə bunun 10 milyarda qədər çatdığı vurğulanır. Ödənilən məbləğ bu pulun iki faizindən də az məbləğdir. Bəzi iddialara görə, onları borcu tam olaraq qaytarmaq şərti ilə azadlığa buraxıblar. Həbsdəkilər ona görə buraxılıb ki, nəzarətlərində olan daşınmaz əmlakı satıb borclarını geri qaytarsınlar. Həmçinin bildirilir ki, bəzi iş adamlarının həbsdə qalması pul dövriyyəsi azalıb. Ona görə də bu tendensiyanı aradan qaldırmaq üçün həbsdə olan iş adamlarının buraxılması üçün qərar qəbul edilib. Bu versiyalarla bağlı media sonadək araşdırma aparmaq imkanında deyil. Çünki faktlarla bağlı ictimaiyyətə heç bir məlumat verilmir. Tutulan iş adamlarının vəkilləri, yaxınları, ailə üzvlər də mətbuata danışmaqda həvəsli deyillər. Ona görə ictimaiyyətin media vasitəsilə prosesdən xəbər tutması xeyli çətindir.

Ekspertlər Beynəlxalq Bankla bağlı həbslərin davam edəcəyini də bildirirlər. Bildirilir ki, həbslər əsasən bankın keçmiş rəhbəri Cahangir Hacıyevə yaxın iş adamlarını əhatə edəcək. Onlar Beynəlxalq Bankdan kredit yolu ilə götürdükləri milyardlarla manatı mənimsəməkdə ittiham olunur. Məlumata görə, Cahangir Hacıyevin bankın rəhbərliyindən uzaqlaşdırılması da yaxın ətrafına milyardlarla manat kredit verməsi və həmin pulların isə qaytarılmaması ilə bağlıdır. Məlumat üçün deyək ki, Beynəlxalq Bank ən çox kredit verən bank kimi tanınır. Ölkə üzrə kredit portfelinin 60 faizi bu bankın payına düşür.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015


Qan Turalı


Nigar Köçərli

# Kitab davası böyüyür

## Nazirlik Qan Turalını dəstəklədi; yazar "“Əli və Nino" təxribata əl atır" deyir

**“Əli və Nino” Kitab Evi ilə yazar Qan Tural arasındakı qalmaqal səngimək bilmir. Kitab evinin rəsmi Facebook səhifəsində yazılanları Qan Tural özünə qarşı təxribat sayır. Bu barədə yazar “Yeni Müsavat”a açıqlamasında məlumat verib. Onun sözlərinə görə, saytın səhifəsində “İyun ayında hansı kitabları oxumaq istəyirsiz?” sualına istifadəçilərdən bəziləri “Doqquz hekayə” kitabını oxumaq istədiklərini bildiriblər.**

Bunun qarşılığında isə “Əli və Nino”nun admini adından belə bir şərh yazılıb: “Əziz dostlar, ”9 hekayə" kitabını müəllif pulsuz paylayır. Müəllifə müraciət edin".

Qan Tural hesab edir ki, bu, ona qarşı ciddi təxribatdır. “Yeni Müsavat” isə dünən gün ərzində bir neçə dəfə “Əli və Nino” Kitab Evinin rəhbəri Nigar Köçərli ilə əlaqə saxlamağa cəhd edib. Amma xanım Köçərli nə zənglərə, nə də sms-lərə cavab verib.

Bu arada kulis.az saytı “Əli və Nino” mağazalar şəbəkəsinin bəzi müəlliflərin kitablarının satışında yaratdığı süni əngəllərə münasibət bildirməsi üçün Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinə müraciət edib. Şöbənin məsələ ilə bağlı Kulisə verdiyi rəyi təqdim edirik: “Bəzi hallarda yanlış təəssürat informasiyanın azlığı və yaxud gerçəkliyi özünün arzuladığı kimi görmək düşüncəsi əsasında formalaşır. Azərbaycanda Sovet dönəmində bütün rayonlarda, qəsəbələrdə, bir çox iri kəndlərdə, xüsusən Bakı şəhərində yüzlərlə kitab mağazaları fəaliyyət göstərib. Mağaza da dövlətə məxsus idi, onun içində satılan kitab da. Ötən əsrin 90-larında baş verən ictimai-siyasi hadisələr dalğasında bu kitab mağazaları öz funksiyasını qoruya bilməyib sıradan çıxdılar. Çünki kitabın arasını açan, üzünə baxan yox idi. Əslində müstəqillik anlayışı baxımından həmin dövrdə, həmin kitab dükanlarında sərgilənən kiril əlifbalı kitabların ən azı yarıdan çoxunu yararsız, hətta ziyanlı kitablar saymaq olar. Sonrakı illərdə ölkəmizdə gedən sürətli və geniş miqyaslı quruculuq işləri, nəşriyyat sahəsinin dövlət asılılığından xilas olub sərbəst fəaliyyət göstərməyə başlanması təbii ki, kitabın yeni yayım məkanlarının yaranmasına da meydan açdı. Bu səbəbdən ölkədə kitab satışı yoxdur deyənlər, ən azı məsələni şişirdirlər. Hazırda konkret olaraq Bakı şəhərində böyük ticarət mərkəzlərində, dəftərxana ləvazimatı satılan mağazalarda kitab satışı həyata keçirilir. Bakının mərkəzi küçələrində sərbəst fəaliyyət göstərən kitab mağazalarını necə danmaq olar?! Bu mağazaların böyük əksəriyyəti özəldir. Bu o deməkdir ki, kitaba maraq əsaslı dərəcədə yüksəlib. Mağazaların artımı, kitab yayımı sahəsində təklif və tələb prinsipinin ildən-ilə məhz reallığı əks etdirdiyini kim inkar edə bilər? Ədəbiyyatımız da inkişaf edir. Son illər dərsliklərin yüksək məzmunu və ona uyğun poliqrafiya ilə nəşri sahəsində böyük intibah baş verib. Müəlliflərin adları, işıq üzü görən kitablar o qədər çoxdur ki, hamısını yadda saxlamaq olmur. İnternet, virtual məkan nə qədər hökmranlığa can atsa da, kitab nəşri yayımı ildən-ilə daha da genişlənir. Dövlət ümumi inkişaf prosesini dəstəkləyir, nəşriyyatların, kitab yayımçılarının təşəbbüslərini kulturoloji və maddi dəstəklə müdafiə edir. Amma hansısa icra orqanı deyə bilməz ki, kimsə kitab mağazası yaratsın, yaxud yaratmasın, deyə bilməz ki, hansı mağazada hansı kitab satılsın, yaxud oxucu bu kitabı alsın, o birini yox...

Hazırda Azərbaycanda kitab yayımı dünyanın bir çox inkişaf etmiş ölkələrinə mütənasib şəkildə inkişaf edir. Əlbəttə, kitab yayımı işi bütün hallarda müəlliflərin mənafeyi gözlənilməklə daha da genişlənməli, yeni, modern kitab mağazaları, mütaliə klubları, kitab evləri yaradılmalıdır. Çünki söhbət cəmiyyətin özünü idarəsində olduqca zəruri bir məsələdən - biliyin, intellektual sərvətlərin insanlara çatdırılmasından gedir".

Qan Tural isə “Yeni Müsavat”a açıqlamasında nazirliyə məsələ ilə bağlı ortaya qoyduğu qəti mövqeyə görə təşəkkür edib. Onun sözlərinə görə, dövlət, əlbəttə ki, birbaşa ədəbi prosesə müdaxilə etməməlidir, lakin yeri gəldikcə həqiqəti deməkdən də çəkinməməli, rəydə bildirildiyi kimi müəlliflərin mənafeyini qorumalıdır: “Biz barışıq istəyirik, barışıq üçün də şərtimiz bəllidir; Azərbaycan yazıçılarının kitabları bu mağazada satışa çıxarılmalı və onlara qarşı qoyulan qadağa qeydsiz-şərtsiz götürülməlidir. Lakin biz görürük ki, ”Əli və Nino" artıq təxribata əl atır. Belə ki, mənim kitablarımın guya pulsuz yayılması ilə bağlı öz səhifəsində qeydlər yazır və öz aləmində bizi ələ salır. Bu təxribat onların nə qədər qeyri-ciddi insan olduğunu, məncə, əyani şəkildə sübut edir. Mədəniyyət və Turizm Nazirliyinin məsələyə münasibəti də onları bu çirkin əməllərindən nəinki döndərir, hətta onlar öz səhvlərində səbat göstərməyə davam edirlər".

Müsahibimiz "“Əli və Nino" satmırsa başqa mağazalar satsın" arqumentinə də cavab verdi. Dedi ki, ölkədə kitab satışı məsələsində vəziyyət ürəkaçan deyil: “Mənim kitabım cəmi beş mağazada satılır. Amma ”Əli və Nino"nun səkkiz mağazası var. Bu bazarın 61.5 faizi edir. 35 faizdən artığı isə monopoliyadır. Təsəvvür edin ki, Bakıda cəmi 12 kitab mağazası var və 7-si mənim kitabımı satmır. Axı məsələ “başqası satsın”la qurtarmır. Görün, bizi necə ağır şərtlərdə oynamağa məcbur edirlər".

❑ **Sevinc TELMANQIZI**

# Etiraz aksiyasına görə islamçılar ofislərindən çıxarıldı

## AİP funksioneri Vüqar İbayev: “Ev sahibinə təzyiq edildiyi üçün onu məhkəməyə verməyəcəyik...”




**Azərbaycan İslam Partiyası növbəti dəfə qərargahsız qalıb. İslaminsesi saytının məlumatına görə, partiya bir ay əvvəl icarəyə götürdüyü ofisindən köçürülüb. AİP mətbuat xidmətindən islaminsesi.org-a bildirilib ki, partiyanın Nizami rayonunda yerləşən qərargahına gələn mənzilin sahibi təcili mənzili boşaltmağı tələb edib, əks təqdirdə qərargaha məxsus əşyaları bayıra atacağı ilə hədələyib.**

Qeyd edək ki, ev sahibi bir ay öncə AİP-lə 1 illik kirayə müqaviləsi imzalayıb. Qanuna uyğun olaraq vaxtlı-vaxtında vergi ödənilib. Ancaq buna baxmayaraq, mənzil sahibi mənzili başqasına kirayə verib. Yeni kirayənişin isə mənzilin hazırkı sahibinə xəbərdarlıq etmədən öz əşyalarını qərargahda yerləşdirib.

AİP sədrinin Təşkilatı məsələlər üzrə müavini Vüqar İbayev “Yeni Müsavat”a açıqlamasında yeni qərargaha 1 ay əvvəl köçdüklərini və mənzil sahibi ilə 1 illik icarə müqaviləsi bağladıqlarını bildirdi. Ancaq onun sözlərinə görə, yeni qərargahda ilk toplantıdan sonra mənzil sahibinə təzyiqlər başlayıb: “Yeni qərargahda dəyirmi masa keçirdik. Əsas mövzular Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiyanın Yəməni bombalaması, Şeyx Nimrə Səudiyyə məhkəməsi tərəfindən ölüm hökmünün çıxarılması və Azərbaycanda hicab və vicdan məhbuslarının təzyiqlərə məruz qalması idi. Bildiyiniz kimi, hazırda vicdan məhbuslarına, ilahiyyatçılara həbsxanada təzyiqlər olur, Hacı Mövsüm və Hacı Taleh həbsxanada təzyiqlərə məruz qalır, həbsxana daxilində qandalla saxlayırlar. Dəyirmi masada müzakirələr oldu, etirazlar bildirildi, eyni zamanda Səudiyyə Ərəbistanı hakimiyyətinin qərarına etiraz bildirdik”.

V.İbayev deyir ki, bu tədbirin səhəri günü mənzilin sahibi onlara zəng edərək qərargahın yerləşdiyi mənzili boşaltmalarını istəyib: “Biz vaxt istədik, yeni ofis axtaraq. Bir neçə ev alğı-satqı mərkəzlərinə müraciət etdik ki, yeni ofis tapaq. Həmin ərəfədə daha bir tədbirimiz BMM-də oldu. Səhəri gün yenidən ev sahibi zəng edərək köçməyimizi tələb etdi. Sonuncu dəfə şənbə günü Səudiyyə Ərəbistanı səfirliyi qarşısında etiraz aksiyasından sonra ofisin sahibi zəng edərək bildirdi ki, bir gün ərzində çıxmalısınız”.

Vüqar İbayev deyir ki, bazar günü ev sahibi onu ofisə dəvət edib və özü ilə gətirdiyi və qohumları adlandırdığı adamlarla birlikdə ofisin əşyalarını boşaltmağı tələb edib, eyni zamanda ofisə yeni kirayəçi köçürülüb. AİP nümayəndəsi deyir ki, əllərində 1 illik müqavilə sənədi olsa da, ev sahibini məhkəməyə verməyəcəklər: “Biz başa düşürük ki, burda ev sahibinə təzyiq ediblər. Ona görə də məhkəməyə vermək fikrimiz yoxdur. Doğrudur, əvvəlcə belə təkliflər oldu, amma sonra vaz keçdik. Aydın məsələdir ki, evin sahibinə təzyiq edilib. Biz də bunu anlayışla qarşıladıq. Hazırda yeni ofis axtarırıq, hələlik ofisimiz yoxdur”.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

## Vaşinqtonla rəsmi Bakının münasibətlərində görünməmiş olay




# ABŞ-ın Bakıdakı enerji tədbirinə qarşı de-marşı

## Amerika prezidenti son illər ilk dəfə olaraq "Caspian Oil and Gas" sərgisinə təbrik məktubu göndərmədi; Xəzər regionunun əsas neft-qaz layihələrinin və enerji təhlükəsizliyinin təminatına həsr olunan ən yüksək səviyyəli tədbirə okeanın o tayından rəsmi nümayəndə də gəlmədi

**Avropa Oyunları ərəfəsində Azərbaycanla ABŞ arasında münasibətlər yenidən gündəmin mövzularından birinə çevrilib. Ötən həftəsonu iqtidara yaxın saytların ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ilə Milli Şuranın sədri Cəmil Həsənlinin görüşü haqda yaydığı məlumatlar bu ölkənin diplomatik korpusunda narazılıqla qarşılanıb.**

Həmin məlumatlarda bildirilirdi ki, görüşdə mayın 30-da Milli Şuranın mitinqi ilə yanaşı, C.Həsənliyə I Avropa Oyunları dövründə bu qurumun fəaliyyəti, keçirəcəyi tədbirlərə dair ciddi tapşırıqlar verilib. Milli Şuranın sədrinə qarşıdan gələn dövrdə rəhbərlik etdiyi qurumun fəaliyyətini xaricdə Azərbaycan hakimiyyətinə qarşı kampaniya təşkil etmiş mərkəzlərlə əlaqələndirmək göstərişi verilib. C.Həsənli ABŞ səfirliyinin əməkdaşlarına deyib ki, hakimiyyət mitinqlərin daha effektli təşkilini müxtəlif süni maneələr törətməklə əngəlləyir. Milli Şuranın tədbirlərini lazımi səviyyədə təşkil etmək üçün ciddi maliyyə yardımına ehtiyac var. Saytlar onu da əlavə edib ki, uzun-uzadı müzakirələrdən sonra Milli Şuranın göstərilən istiqamətlər üzrə fəaliyyətinin təşkili ilə bağlı maliyyə vəsaitinin ayrılması da razılaşdırılıb.

Səfirlik bu xəbərlərdən sonra xüsusi açıqlama yayaraq Cəmil Həsənli ilə görüşə aydınlıq gətirməli oldu. Məlumatda qeyd olunurdu ki, bu görüşdən öncə ABŞ səfiri YAP-ın icra katibi Əli Əhmədov və həmçinin parlamentinin spikeri Oqtay Əsədovla görüşlər keçirərək onların fikirlərini dinləyib: "Bu kimi görüşlər səfir Sekutanın Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin təmsilçiləri ilə görüşmək və onların fikirləri ilə tanış olmaq arzusunun bir hissəsidir. ABŞ səfirliyi Azərbaycanda hər hansısa partiyanı nə təlimatlandırır, nə də partiyaları maliyyələşdirir", - deyə məlumatda bildirilirdi.

Bu gərginlikdən cəmi iki gün sonra, konkret desək, iyunun 1-də ATƏT-in Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyət mandatının dayandırılması barədə ilk olaraq özünün twitter hesabında xəbər yayan Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov bu dəfə Amerikanın ATƏT-dəki səfirinə qarşı sensasion ittiham irəli sürüb: "Məlumat aldım ki, ATƏT-in Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyət mandatı dayandırılıb. Diplomatik dairələrdə bunun əsas səbəbini ABŞ-ın ATƏT-dəki səfirinin mövqeyi ilə izah edirlər. ABŞ-ın ATƏT-dəki səfiri D. Bayer A. Şahtaxtinskiyə irad tutub ki, sən niyə ölkənin başçısı ilə şəkil çəkdirmisən? Belə çıxır ki, A. Şahtaxtinski səfir Bayerlə şəkil çəkdirsəydi, onun gələcək karyerası çox uğurlu olardı".

ABŞ-ın Avropadakı ən böyük bir qurumdakı səfirinə qarşı bu sensasion ittihamı isə, nə qədər qəribə səslənsə də, Azərbaycan XİN də təsdiqləmədi. Rəsmi məlumata görə, Aleksis Şahtaxtinskinin səlahiyyət müddəti, sadəcə, bitib... Prezidentin adı keçən bir xəbəri Novruz Məmmədov kimi məlumatlı məmurun "təsdiqlənməmiş mənbəyə istinadən" yayması, əlbəttə ki, real görünmür. Bu ittihamın həm də Xəzəryanı regionun energetika sektorunun ən böyük tədbiri sayılan 22-ci Azərbaycan Beynəlxalq "Xəzər Neft və Qaz 2015" ("Caspian Oil and Gas 2015") sərgisinin açılışı ərəfəsində verilməsi də təsadüfə oxşamır.

***

İyunun 2-də Bakı Ekspo Mərkəzində açılışı olan "Xəzər Neft və Qaz 2015" ("Caspian Oil and Gas 2015") sərgi və konfransı başlayıb. Tədbiri "İTE Group Pic" şirkətinin baş məsləhətçisi Ser Endryu Vud açıb.

Böyük Britaniyanın krallığının paytaxtı London şəhərinin Lord meri Alderman Alan Yarrou ölkəsinin baş naziri Devid Kemeronun salamlama məktubunu oxuyub. Eyni zamanda Polşa baş nazirinin müavini Yanuş Pexoçinski və İraqın neft naziri Adil Əbdülmehdi Hassan Şubber çıxış ediblər.

Tədbirin rəsmi açılış mərasimində prezident İlham Əliyev çıxış edib.

İyunun 5-də başa çatacaq sərginin təşkilatçıları "Iteca Caspian" və "ITE Group" şirkətləridir. Regionda neft-qaz sənayesinin əsas hadisəsi olan və beynəlxalq müstəvidə tanınmış platforma sayılan "Caspian Oil and Gas 2015" sərgisi 20 ildən çoxdur ki, Xəzər regionunun əsas neft-qaz layihələrini və enerji təhlükəsizliyinin təminatını müzakirə etmək üçün ən yüksək səviyyəli rəhbərləri bir araya gətirir. Neft-qaz sərgisində 300-dən çox şirkət iştirak edir.

Amma budəfəki tədbirdə, nədənsə, Amerika rəsmi nümayəndələri gözə dəyməyib. Yüksək rütbəli ABŞ rəsmilərinin onların Bakıya səfəri haqda da heç bir məlumat yoxdur. O cümlədən məlum olub ki, bu tədbirə ABŞ prezidenti ənənəvi məktub belə göndərməyib. Hər halda açılış törənində belə bir məktub oxunmayıb. Məlumat üçün deyək ki, ötən il bu sərgi 3-6 iyun tarixlərində keçirilib. Rəsmi açılış mərasimində ABŞ prezidenti Barak Obamanın, Böyük Britaniya baş naziri Devid Kemeronun, Norveç krallığının baş naziri Erna Solberqin və energetika üzrə Avropa komissarı Günter Ottingerin adından təbrik məktubları oxunub. Açılış mərasimində "BP" şirkətinin baş direktoru Robert Dadli də çıxış edib. 2013-cü ildə "Xəzər Neft-Qaz" sərgisinin 20-ci ildönümündə də Obamanın təbrik məktubu haqda hətta prezident İlham Əliyev də çıxışında xatırladıb: "Əsas neft və qaz müqavilələrinin artıq imzalanmasına, xarici şirkətlərin Azərbaycanda uzun illər ərzində uğurla fəaliyyət göstərmələrinə baxmayaraq, sərginin əhəmiyyəti artmaqdadır. Və əlbəttə, ənənəvi olaraq Amerika Birləşmiş Ştatları Prezidentinin və Böyük Britaniyanın Baş nazirinin sərgiyə göndərdikləri təbrik məktubları sərginin nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha sübut edir", deyə prezident bildirmişdi.

ABŞ-ın ölkəmizdəki səfirliyindən sualımıza konkret cavab ala bilmədik. Amma onu öyrəndik ki, iyunun 1-də ABŞ və İngiltərə səfirliyi sərgi ilə bağlı birgə ziyafət-qəbul təşkil edib.

Amerika ilə münasibətlərdə yaranmış soyuqluq dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın bu ilin fevralında baş tutan Bakı səfəri də aradan qaldırmadı. Halbuki Nuladın səfəri zamanı vətəndaş cəmiyyəti və demokratikləşmə məsələləri üzrə Amerika-Azərbaycan xüsusi dialoq formatının yaradılması ilə bağlı ilkin razılıq əldə olunmuşdu.

Amma bu səfərdən sonra da Dövlət Departamentindən və Amerika mətbuatından gələn qınaqlara rəsmi Bakı daha sərt tonda cavab verdi. Bu yaxınlarda isə məlum oldu ki, ABŞ dövlət katibinin insan hüquqları üzrə köməkçisi Tom Malinovskinin mayın ortasında Bakıya nəzərdə tutulan səfəri də təxirə salınıb. Tom Malinovski vətəndaş cəmiyyəti və Qərb institutlarına təzyiqlərin davam etməsini müzakirə etmək üçün Bakıya gəlməyi planlaşdırmışdı. Lakin son anda məlumat yayıldı ki, Azərbaycanın görüşdən imtina etməsi səbəbindən səfər ləğv edilib. Xəbəri agentliklərin birinə şərh edən amerikalı ekspert "səfərin ləğvi düzgün qərardır, çünki indiki durumda Bakı ilə dialoq mənasızdır", - deyə bildirmişdi.

Son günlər baş verən bu hadisələr də göstərir ki, ABŞ-la Azərbaycan arasında münasibətlərin gərginləşməsi haqda deyilənlər əsassız deyil.

❑ **"Yeni Müsavat"**

# Biznesmen məmurlar və deputatların gizli planı üzə çıxdı

## Rusiyada məmurlara və deputatlara bizneslə məşğul olmağı qadağan edən qanunun ləğv olunmasını Azərbaycanda da həyata keçirmək istəyənlər var

**Ölkədə bizneslə məşğul olan vəzifəli adamlar biznes fəaliyyətlərinə qanunda olan qadağanın aradan qalxmasını istəyirlər. Bu barədə modern.az saytı məlumat yayıb. Xəbərdə deyilir ki, bununla bağlı müəyyən addımların atıldığı, lakin sonda müsbət nəticə vermədiyi barədə xəbərlər var.**

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da sözügedən qadağanın götürülməsinə çalışanların olduğunu təsdiqləyib. Onun dediyinə görə, belə fikirlər formalaşdırmağa başlayıblar ki, məmurlar, icra başçıları bizneslə məşğul ola bilərlər. Hətta buna görə qanunda dəyişiklik də etmək istəyirdilər. Deputat qanuna belə bir dəyişiklik cəhdinin qəti əleyhinə olduğunu bildirib: "Bəzi insanlar qanuna bu dəyişikliyin qəbulunun tərəfdarı olsalar da, mən əleyhinəyəm. Hazırkı qanunla məmurlar, icra başçıları, Milli Məclisin deputatları biznes fəaliyyəti ilə məşğul ola bilməzlər. Mən də məhz bu qanunun tərəfdarıyam.

Kimlərsə yeni qanunla məmurlara bizneslə məşğul olmaq imkanı verilməsini istəyirlər. Mənim fikrimcə, biznes biznesdir, hökumət hökumət. Bunu birləşdirməyin yeri yoxdur".




Vahid Əhmədov onu da vurğulayıb ki, hökumət adamı dövlətin işi, əhalinin rifah halının yaxşılaşdırılması, sosial vəziyyətin təmin edilməsilə məşğul olmalıdır: "Məmurun vəzifəsi budur. Eyni zamanda Azərbaycanda sahibkarlığın, biznesin inkişafı üçün şərait yaradılmalı, maneə törədilməməlidir. Bəzi məmurlar var ki, gizlin şəkildə bizneslə məşğul olurlar. Nəticədə kifayət qədər kapital əldə edirlər. Mən o kapitalların leqallaşdırılmasının tərəfdarıyam ki, vəsait xaricə axmasın, Azərbaycanda qalsın. Düşünürəm ki, kapitalın leqallaşdırılması ilə bağlı qanun layihəsi qəbul edilməlidir. Qanunu da elə çərçivədə qəbul etmək lazımdır ki, dövlətin mənafeyinə ziyan gətirməsin".

Onu da bildirək ki, bu ilin mayın əvvəlində Rusiyada məmurlara və deputatlara bizneslə məşğul olmağı qadağan edən qanun müddəası bir neçə şərtlər qanuna əlavə edilməklə ləğv olunub. O zaman "Yeni Müsavat"a açıqlamasında deputat Fazil Mustafa gec-tez Azərbaycanda da bu addımın atılacağını bildirmişdi: "Rusiya Dumasının atdığı addımın Azərbaycanda da təkrarlanması gözləniləndir. Bəllidir ki, son vaxtlar Rusiya nə edirsə, biz də onu təkrarlayırıq. Çox güman ki, Rusiyada atılan sözügedən addımın küləyi əvvəl-axır bizə gələcək".

F.Mustafanın özü qanundakı sözügedən qadağanın ləğvinin tərəfdarıdır. O "Yeni Müsavat"a açıqlamasında bu istiqamətdə təkliflərini də dilə gətirib: "Faktiki olaraq Azərbaycanda bütün məmurlar sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Çox az sayda orta səviyyədə məmurların buna imkanı yoxdur. İmkanı olan onun-bunun adı ilə onsuz da sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Qanundakı məlum qadağa faktiki olaraq işləmir, hüququn buna müdaxilə eləmək imkanı yoxdur. Faktiki real həyatda məmurlar bizneslə məşğuldurlar. Ona görə də, məncə, bunu hüquqa uyğunlaşdırmaq, leqallaşdırmaq daha düzgün olardı ki, hər kəsin nəyi var ortaya çıxsın, hər kəs real məşğul olduğu işlə məşğul olsun və başqasının adı ilə bunu etməyə də gərək qalmasın".

Fazil Mustafa hesab edir ki, qanundakı məlum qadağa bizneslə məşğul olan məmurlara sərf etmir, onların ziyanınadır: "Onsuz da tutanda hamının nəyi var əlindən alırlar, onsuz da bilinir ki, kimin harda nəyi var. Çox az şeyi gizlətmək mümkün olur. Gizlədilənlər isə üzə çıxanda məmurun işi daha da ağırlaşır. Ona görə də qanundakı o qadağanı aradan qaldırıb məmurların sahibkarlıqla məşğul olmasını qanuniləşdirmək lazımdır. Qoy adamlar rahat biznesləri ilə məşğul olsunlar, nələrisə gizlətməsinlər".

❑ **Etibar SEYİDAĞA**


Birlikdə.
Avropanı evimizdə
salamlayırıq.
İlham Zəkiyev,
Cüdo – 100kq-dan
yuxarı çəki dərəcəsi
Baku 2015
1st EUROPEAN GAMES
bp
Rəsmi Tərəfdaş
Azərbaycanın 20 ildən artıq sadiq tərəfdaşı kimi Bakı 2015 Avropa Oyunlarına qatılmağımızın həyəcanını yaşayırıq. Biz məşhur Azərbaycan olimpiyaçıları və paralimpiyaçılarına sponsorluq edir, həm də onlar üçün elit idman təlimlərini təmin edirik. Ölkənin dünya səviyyəli tədbirlər keçirmək potensialını yüksəldəcək Bakı 2015 Avropa Oyunları Akademiyasına da dəstək veririk.
BP və Azərbaycan – birlikdə Oyunlar və gələcək naminə.
Daha ətraflı məlumat üçün: bp.com/baku2015

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

**Azərbaycanın tanınmış şairi, hazırda Türkiyənin Çanaqqala Universitetində müəllim işləyən Məmməd İsmayıl "Azadlıq" qəzetinə müsahibəsində Müsavat Partiyasında formal üzvlüyünə son verdiyini bəyan edib. O bildirib ki, 1990-cı illərdə Türkiyədə-qürbətdə olan Müsavat Partiyası özəyi Azərbaycana köçürüləndə və vətəndə yenidən bərpası gerçəkləşəndə partiyanın qurucu üzvlərindən biri olub.**

# Məmməd İsmayılın Müsavatdan istefasına reaksiya gəldi



**Məmməd İsmayıl:** "Onlar da mənim partiya sıralarında qalmağımı istəmirlər"



**Gülağa Aslanlı:** "Məmməd İsmayıl kimi yaşı 70-i keçmiş tanınmış bir şairin hər hansı bəhanə axtarmasına ehtiyac yoxdur"

Vətəndə yaşadığı vaxtlarda partiyanın işində gücünün yetdiyi qədər iştirak edib. Türkiyəyə getdikdən bir müddət sonra isə Müsavata üzvlüyü formal xarakter daşımağa başlayıb: "Övladlarıma bir parça çörək arxasınca Türkiyəyə üz tutmamışdan öncə partiyanın o zamankı başqanı İsa Qəmbərlə görüşmüş, vəziyyətimi anlatmışdım. İlk qürbət illərində partiya ilə zəif də olsa əlaqələrimiz vardı. Sonra yavaş-yavaş bu əlaqələr sıfır nöqtəsinə endi. Partiya sıralarına buna haqqı olmayan iddialı adamlar gəldi və məni yenidən partiyanın Məclisinə seçmədilər. Buna bir anlam verməsəm də, ümumi işimiz və tutduğumuz qutsal yolun xatirinə mənə qarşı saygısızlığa aldırmadım. Soruşsam, səbəbi, əlbəttə, qürbətdə olmağımla bağlayacaqlardı. Partiyalar tarixində sıradan üzvlərin yox, hətta partiya öndərlərinin xaricdə yaşamaq zorunda qaldığını bilirik. Amma partiyanı yönləndirənlər, görünür, mənim dəstəyimə ehtiyac duymadılar. Halbuki gücümün yetdiyi qədər Türkiyədə şəxsi fəaliyyətimlə partiyanın nüfuzunun yayılmasına kömək göstərdim, Türkiyədən Bakıya partiya nümayəndələrinin gedib-gəlməsinə çalışdım, amma... Bəlkə misalım yerinə düşməyəcək, yenə də deyim. Bulaqlardan başlanğıc alan çaylar yollarda qolları da içinə alıb gücünə güc qatıb və əzəli arzusuna - dənizə qovuşmaq üçün can atar. Əslində partiyalar da eyni missiyanı daşımalıdır. Yollar boyu əzəli missiyasına - millətə, ölkəni idarə etmək amacına doğru gücünə güc qataraq irəliləməlidir. Gəlin görək Azərbaycandakı müxalifət partiyaların çoxu edə bildimi? Xüsusilə Azərbaycanın ən köklü partiyası olan Müsavatın düşdüyü indiki durum məni çox narahat edir. Bu başlayan dağılma prosesi nəyin göstəricisidir? Əlbəttə, buna təbii proses demək doğru olmazdı. O zaman buna nə ad verək? Artıq mən Müsavat Partiyasının sözdə, formal üzvü olmaq istəmirəm və bu müsahibə ilə də üzvlüyümə son verdiyimi bəyan edirəm. Onu da bilirəm ki, Müsavat Partiyasının yeni rəhbərliyi üçün mənim bu bəyanım sürpriz olmayacaq, çünki mənə münasibətlərindən görünür ki, onlar da mənim partiya sıralarında qalmağımı istəmirlər".

M.İsmayılın dediklərinə və istefasına Müsavat rəhbərliyinin münasibətini öyrəndik.

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, Müsavat Nizamnamə ilə tənzim olunan partiyadır və partiyanın bütün üzvlərinin seçmək, seçilmək hüququ var. Eyni zamanda Müsavat Partiyasının qəbul elədiyi əsasnamələrdə göstərilir ki, Müsavat Partiyasında seçkili orqanlara seçilmək üçün namizədliyin irəli sürülməsi kampaniyası mövcuddur. Hər kəs də namizədliyini şəxsən özü irəli sürməlidir. Ona görə də Məmməd İsmayılın "Məni Məclisə seçmədilər" anlayışını heç cür qəbul etmək mümkün deyil: "Namizədliyini irəli sürmədiyi halda onun seçilməsi də mümkün deyildi. Məmməd İsmayıl indiyə qədər "formal partiya üzvü" olduğunu da ifadə edib. Bütün bunlar yəqin ondan irəli gəlir ki, hörmətli şair Müsavatın Nizamnaməsi ilə ətraflı tanış deyilmiş. Məhz bu səbəbdən də Məclisə namizədliyini irəli sürməyib".

Məmməd İsmayılın partiya rəhbərliyinin onun partiya sıralarında qalmasını istəmədiyi barədə dediklərinə gəlincə, G.Aslanlı vurğuladı ki, qətiyyən belə deyil, Müsavat Partiyasının öz üzvlərinin hər birinə ehtiyacı var, necə ki, hər bir üzvün də Müsavata ehtiyacı var: "Məmməd İsmayıla Müsavat Partiyasında hər hansı mənfi münasibətin şahidi olmamışam. Bir neçə il öncə Məmməd İsmayılın yubileyi Müsavat Partiyasında xüsusi qeyd olunub. Özünün ifadəsi ilə desək, Müsavatda formal üzv olmasına baxmayaraq, Müsavat Partiyası həmişə onu bir şair, ziyalı kimi qiymətləndirib və onun yubileyini təntənə ilə keçirib. Başqa nələrsə gözləmək qarşılıqlı münasibətdən asılıdır. Məmməd İsmayıla Müsavatda lazımi diqqət yetirilib. Onun özü etiraf edir ki, partiyaya üzvlüyü formal olub, partiya üzvü kimi partiyanın işlərində, tədbirlərində iştirak eləməyib. Buna görə Müsavat rəhbərliyi Məmməd İsmayıla heç vaxt narazılıq etməyib, ona "gözün üstə qaşın var" deyən olmayıb.

Müsavat Partiyası partiyadan gedən hər bir şəxs üçün təəssüflənir. Amma gedərkən də həqiqəti söyləyib getmək daha düzgün olardı. Əlavə iddialara ehtiyac yoxdur. Məmməd İsmayıl kimi yaşı 70-i keçmiş tanınmış bir şairin hər hansı bəhanə axtarmasına da ehtiyac yoxdur".

❑ **Etibar SEYİDAĞA**

# Ali Məhkəmə də NİDA-çıların şikayətini təmin etmədi

**İyunun 2-də Ali Məhkəmədə NİDA Vətəndaş Hərəkatının üzvləri - Üzeyir Məmmədli, Rəşad Həsənov və Şahin Novruzlu barəsində olan hökmdən kasasiya şikayəti üzrə proses keçirilib.**

Bu barədə virtualaz.org saytına vəkil Nemət Kərimli məlumat verib. Prosesə hakim Fərhad Kərimov sədrlik edib.

Vəkilin bildirdiyinə görə, NİDA üzvləri günahsız olduqları üçün bəraətverici əsaslarla cinayət təqibinə xitam verilməsini istəyiblər. Ali Məhkəmə onların kasasiya şikayətini təmin etməyib. Vəkil Nemət Kərimli Avropa Məhkəməsinə müraciət edəcəklərini bildirib.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Zaur Qurbanlı 8 il, İlkin Rüstəmzadə 8 il , Rəşadət Axundov 8 il, Rəşad Həsənov 7 il 6 ay, Bəxtiyar Quliyev 7 il, Məmməd Əzizov 7 il 6 ay, Üzeyir Məmmədli 7 il, Şahin Novruzlu 6 il müddətinə azadlıqdan məhrum olunub. Hökmdən apelyasiya şikayəti verilsə də, məhkəmə şikayətləri təmin etməyib.

Onu da qeyd edək ki, B.Quliyev, Ş.Novruzlu, Ü.Məmmədli və Z. Qurbanlı prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə azadlığa buraxılıblar.



# Gəncədə Rəsulzadənin büstünü yenidən çuvala saldılar

## Abidə ətrafında baş verənlər təəssüf doğurur...

**Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin Gəncədəki dəmiryolçular parkında qoyulan heykəli ilə bağlı yaranmış qalmaqal qısamüddətli nəticə verib. Musavat.com xəbər verir ki, artıq abidənin üzərindəki çuval götürülüb. Bu barədə məlumatı musavat.com-a Gəncədə yaşayan oxucumuz Azər Allahverdiyev verib. O, abidənin yeni fotolarını da yollayıb. İyunun 1-də açılan büst ayın 2-də yenidən qapadılıb.**

Teleqraf.az-a verilən məlumata görə, Məhəmməd Əmin Rəsulzadənin Gəncə şəhərində olan büstünə 5 ilə yaxın idi ki, keçirilən torpa götürülərək təmirə başlanmışdı. İyunun 2-də isə büstün üzərini yenidən örtüblər. Buna səbəb büstün təmiri ilə bağlı xəbərin mətbuatda getməsi olub. Görünən budur ki, prezident İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə bağlı verdiyi sərəncam da Rəsulzadə xofunun götürülməsinə kömək etməyib.

Müsavat başqanının Gəncədən olan müşaviri Cahangir Əmirxanlı məsələ ilə bağlı musavat.com-a bildirib ki, təmir bəhanəsi ilə 5 ildir ulu öndərin büstünün başına torba keçirilib: "Bu hal beş ildir davam edir. Elə bil ətrafdakı restoran onun üzərinə gəlir. Yalandan deyirlər ki, guya Gəncənin icra başçısı heykəli təmir etdirmək üçün bu cür addım atıb. Bir təmir neçə il çəkir ki?". Onun sözlərinə görə, büstün aqibəti və təmirlə bağlı dəfələrlə aidiyyəti qurumlara müraciət edilsə də, nəticəsi olmayıb.

"İki il əvvəl isə döyüşmək səviyyəsinə gələcək qarşıdurmamız oldu. Bu özbaşınalığa son qoyulmalıdır. Rəsulzadə haqqında prezidentin qərarı var. Bunlar isə qərarın əksinə gedirlər. Orada qəbiristanlıq var. Bir neçə büst qoyulub, o cümlədən Rəsulzadənin büstü var. Artıq o büstü də ziyarət etməyə imkan vermirlər", deyə o qeyd edib.

Müsavatın Gəncə təşkilatının sədri Oqtay Zeynallı isə bildirib ki, Rəsulzadənin büstü ətrafında baş verən bu oyunlar təhqirdir: "Sabir Rüstəmxanlı bu məsələ ilə bağlı Milli Məclisdə haqlı olaraq iradını bildirdi. Ancaq buranın deputatı, 15 il Milli Məclisdə oturan Musa Quliyev yalan danışdı. Bildirdi ki, park və büst təmir olunur. Bu yalançı təmir illərdir davam edir".

Qeyd edək ki, Milli Məclisin iclasında deputat Sabir Rüstəmxanlı Cümhuriyyət qurucularına aşağılayıcı münasibətin olduğunu bəyan etmişdi. "Neçə vaxtdı deyilir, respublikanın qurucularından biri Məhəmməd Əmin Rəsulzadədir və onun Gəncədə bir büstü var, onun başına çuval keçirilib. Bu, ABŞ-ın türk əsgərinin başına çuval keçirməsi deməkdir. Əgər Gəncə İcra Hakimiyyəti Rəsulzadəni düşmən elan edibsə, desin. Əgər Məhəmməd Əmin Rəsulzadə düşmən elan edilibsə, deyilsin, biz də biləк. Əslində Rəsulzadənin orda böyük heykəli olmalıydı. Yoxdur, bir köhnə büst var, onun da başına illərdir çuval keçiriblər. İcra başçısı zəhmət çəkib öz əlləri ilə onun başındakı çuvalı çıxartsın".

Mayın 28-də isə Məhəmməd Əmin Rəsulzadənin Gəncə şəhərindəki büstünün qarşısına gül dəstəsi qoyulmasına da icazə verilməyib. AXCP və Müsavat partiyalarının yerli şöbələrinin üzvləri Respublika Günü münasibətilə Rəsulzadənin dəmirolçular parkında yerləşən büstünün qarşısına toplaşmaq istəsələr də, şəhər polisi buna icazə verməyib. Polis müxalifətçilərə parkda təmir işlərinin davam etdirildiyini və Rəsulzadənin büstünün də restavrasiya olunduğunu qeyd edərək, tədbirin keçirilməsini müvafiq saymayıb.

❑ **RÖYA**



# Cızıqda dızıldaşanlar

Zamin HACI
zaminhaci@gmail.com

(Metro Tağıya ithaf edilir)

**Deyir 1-ci Avropa Oyunlarının məşəli rayonları hərlənib-fırlanıb, nəhayət, Bakıya varid olmaq üzrədir. Ya da artıq paytaxta giribdir - dəqiq xəbərim yoxdur. Ancaq paradoksal bir hal var ki, məşəli rayondan Bakıya gətirən maşını ola bilər heç Bakıya buraxmasınlar. Məşəl daşıyanlarımızdan müğənni İlhamə xanım Qobustana getsin, ordan 53 kilometr yolu qaça-qaça gəlsin, "Müjdə, ey afinalılar! Biz qalib gəldik! Hətta Anar müəllim demişkən, qalib gəldik, qalib gətdik! Hamınız sevinin, bir Nazpəridən başqa!" söyləyib qan-tər içində ana vətən torpağına yıxılsın. Ta bundan sonrakı ssenarini yazmıram. Yalnız onu qeyd edim ki, həmin 53 kilometri biz gələcək olimpiya oyunlarına "qobustan" yarışı adıyla daxil eləmək hüququnu özümüzdə saxlamalıyıq.**

Bu arada İlhamə Quliyevanın məşəli nə cür daşıyacağı xalq arasında çox müzakirə edildi, dərhal gənclər və idman naziri Azad müəllimdən açıqlama gəldi: "O, məşəli qaça-qaça aparmayacaq, hərəkət edəcək". Lakin İlhamə müəllimə dərhal Azad müəllimi təkzib elədi, nəinki məşəli öz əlində tutacağını, həmçinin qaçacağını, hələ lazım gəlsə sinxron üzgüçülük üzrə milli komandamızı təmsil edəcəyini bildirdi. İndi bütün dünya ictimaiyyətini, o cümlədən Ağcabədi qaçqınlarını düşündürür ki, görəsən, İlhamə xanım düz deyir, yoxsa Azad müəllim. Yaşayarıq görərik.

Məşəli rayon nömrəli maşınla Bakıya gətirmək isə doğrudan böyük qalmaqala səbəb ola bilər. Çünki hazırda rayon nömrəli maşınlar Avropa Oyunları səbəbindən Bakıya buraxılmır. Bunun özü çox gülməli tədbirdir, paytaxtın infrastrukturunun heç nəyə hazır olmadığını göstərir. Təsəvvür edin, oyunlara gələcək komandaların tərkibi məşqçi-zad qarışıq hardasa 6 min nəfər olmalıdır. Bunun da üstünə lap optimist hesablama ilə 20 min xarici tamaşaçını gələk (Hərçənd 2 min gəlsə sevinərsiniz, çünki ağlı başında olan əcnəbinin nəyinə lazımdır yayın 35 dərəcə istisində gəlib Biləcəri yolunda hansısa 35-ci dərəcəli velosiped sürənlərə baxsın?). Amma lap özümüzü AzTV-nin yerinə qoyub yarışlara xaricdən toplam 50 min nəfərin gələcəyini təsəvvür edək. Bakı 3 milyondan çox adamın yaşadığı bir böyük meqapolisdir. Əgər bu meqapolis bir ay ərzində, özü də çox adamın tətildə olduğu bir vaxtda, 50 min adamı qəbul eləməyə zülm çəkirsə, demək, bu şəhər yaşamalı yer deyil.

Yaxşı olar rayonlar da qeyrətə gəlsinlər, cavab tədbiri olaraq Bakı maşınlarını rayona buraxmasınlar. Misal üçün, Kürdəmirdə pambıq yığımı zamanı, Lənkəranda kələm mövsümündə, Xaçmazda pomidor bitəndə paytaxta qapanmaq lazımdır. Qisas almaq lazımdır, bəs necə!

Bu arada bir vicdanlı vətəndaş olaraq məlumat verim ki, srağagün Bakıda küçədən keçərkən yoldakı Avropa Oyunları sarı zolağını 2 dəfə tapdalamışam. Buna görə cəzam nədirsə çəkməyə hazıram. Hətta qeyd edim ki, birinci tapdalama zamanı zolağı görməmişdim, ikinci dəfə isə qəsdən ayaqladım. Cəzalar ancaq maşınlara aiddir, yoxsa piyadalara da düşür - bunu bilmək maraqlı olardı.

Söz düşmüşkən, həmin sarı zolağı keçən maşınların cərimələnməsi, təkcə ilk gün 700 maşına 40 manatdan cərimə yazılması əhalini əməllicə zolağa salmışdır. İndi yol tıxac olsa da heç kim risk edib həmin zolağa girmir. Bütün sutka boyu zolaq boş qalır, nə gələni var, nə gedəni. Məncə, bunu davamlı eləmək lazımdır, qoy həmin zolaq həmişə boş saxlanılsın. Bir tarixi abidə, qan yaddaşı kimi. Millət o zolağa baxdıqca hansı gündə yaşadığını, hansı cızıqla getməli olduğunu başa düşür. Yoxsa cızıqlarından çıxmışdılar, neft pullarından pay-zad istəyirdilər.

Bu mövzuda bir yaxşı lətifə də var, cızıqdan çıxmağı nəzərdə tuturam, amma burda yazılası deyil. Bilənlər bilməyənlərə danışsın.

# "Oliqarxqeyt həbsləri" barədə yeni şok bilgilər

## Bir neçə məmur və deputat övladı kredit borcunu qaytardıqdan sonra azad olunublar; Cahangir Hacıyevin yeri bilindi

**Azərbaycan Beynəlxalq Bankından götürdükləri külli miqdarda kredit borcunu ödəmədikləri üçün saxlanılmış iş adamlarından 43 nəfəri sərbəst buraxılıb. APA-nın əldə etdiyi məlumata görə, onlar vaxtı keçmiş kredit borclarını ödədikdən sonra sərbəst buraxılıblar. Borcların ödənilməsindən sonra iş adamlarından bəziləri barəsində seçilmiş həbs qətimkan tədbiri məhkəmə qərarı ilə dəyişdirilib. Məlumatda o da qeyd olunur ki, sərbəst buraxılmış iş adamlarının indiyə qədər ödədikləri vaxtı keçmiş kredit borcunun ümumi miqdarı 110 milyon manat təşkil edir.**

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankından götürdükləri külli miqdarda kredit borcunu ödəmədikləri üçün bir qrup iş adamı Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi tərəfindən saxlanılıb. Onların arasında tanınmış iş adamları Nizami Piriyev, Hacı İbrahim Nehrəmli və başqaları da olub. Adıçəkilən iş adamları da mətbuata verdikləri açıqlamalarında vaxtı ötmüş kredit borclarını ödədikdən sonra sərbəst buraxıldıqlarını bildiriblər.

Beynəlxalq Banka külli miqdarda kredit borcu olan vəzifə sahibləri sırasında hətta nazirlər və komitə sədrlərinin də olduğu vurğulanır. O da qeyd olunur ki, "Beynəlxalq Bank işi" ilə bağlı məsələ gündəmə gətirildikdən sonra həmin məmurlar bərk qorxuya düşüb, çıxış yolu axtarmaqdadırlar. Modern.az etibarlı mənbədən əldə etdiyi xəbərdə bildirilir ki, hətta bir neçə məmur və deputat övladı kredit borcunu qaytarmadığına görə həbs edilib, yalnız borcu ödədikdən sonra azad olunublar.

Kredit alıb qaytarmayanlar 1 ay ərzində hər şeyi qanun



çərçivəsində həll edəcəklərinə dair iltizam veriblər.

Bu arada mətbuatı günlərdir aradığı Beynəlxalq Bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyev haqda da məlumat yayılıb. "Cahangir Hacıyevlə bağlı yayılan xəbərlərin əksəriyyəti yalandır. Onu heç kim həbs etməyib, hazırda Azərbaycandadır". Bunu azvision.az-a açıqlamasında İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov deyib.

Azərbaycan Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyevin ölkədən qaçması ilə bağlı yayılan xəbərlərə münasibət bildirən E.Behbudov bunun cəfəngiyyat olduğunu bildirib.

Adı "Cahangir Hacıyev işi"ndə hallanaraq saxlanılmış sabiq deputat Dünyamin Xəlilova məxsus "Globus Plaza" isə satışa çıxarılıb. D.Xəlilovun saxlanılmasından sonra (bəzi məlumatlara görə, o, ölkədən qaçıb) plazada axtarış işləri həyata keçirilib və kassalar möhürlənib. Plazanın mühasibləri isə dindirilmək üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Daha sonra isə şirkətin satışa çıxarılması məsələsi müzakirə olunub.

Plaza işçilərinin verdiyi məlumata görə, şirkətin artıq ilk müştərisi var. Müştərinin adı çəkilməsə də, onun türkiyəli iş adamı olduğu deyilir.

Məlumat üçün deyək ki, Cahangir Hacıyevə məxsus brend mağaza "Harvey Nichols" da "Globus Plaza"da yerləşir. Onu da bildirək ki, "Harvey Nichols" brendi adına xələl gətirdiyi üçün C.Hacıyevə verdiyi françayzinq səlahiyyətlərini geri götürüb (aznews.az).

Nərimanov rayonu, Həsən Əliyev 36 ünvanında yerləşən "İnqilab Plaza" Ticarət Mərkəzi də satışa çıxarılıb. Axar.az-ın mötəbər mənbədən əldə etdiyi məlumata görə, 7 mərtəbəli, ümumi sahəsi 7 min kv/m olan ticarət mərkəzi 17 milyon manata satılır. Plazanın 0-4-cü mərtəbələrində 1 saylı Bakı ASAN xidmət mərkəzi fəaliyyət göstərir. "İnqilab Plaza" 2011-ci ilin sentyabrında istifadəyə verilib. Burada 200-2000 kv.m-lik ofislər icarəyə verilir. Plaza yeni istifadəyə verilən vaxtlarda 1 kv.m üçün 25 manat təklif olunurdu. Ticarət mərkəzinin son dönəmlərdə həbs olunan oliqarxlardan birinə məxsus olduğu ehtimal olunur.

❑ **"Yeni Müsavat"**

# SOCAR 400 milyonluq müqavilədən imtina etməyəcək

## Prezidentin "heç kim əlavə güzəştlər tələb etməməlidir" sözləri hansı ölkəyə ünvanlanıb?




**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Yunanıstanın qazpaylayıcı şəbəkəsi olan DESFA şirkətində sahib olduğu 66%-lik payını azaltmaq niyyətində deyil. Bunu SOCAR-ın Sərmayələr İdarəsinin direktoru Vaqif Əliyev bildirib. Onun sözlərinə görə, Yunanıstan tərəfinin imzalanan müqaviləyə yenidən baxılmasına və SOCAR-ın payının 49%-ə endirilməsi kimi təkliflərinə baxmayaraq, Azərbaycan tərəfinin bu məsələdə mövqeyi dəyişməyib: "SOCAR DESFA-da sahib olduğu 66% səhmi satmaq və ya azaltmaq niyyətində deyil".**

Yunanıstan hökumətinin ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 66 faizinin SOCAR-a satışına dair müqaviləni pozmaq istəməsi barədə ötən saylarımızda xəbər vermişdik. SOCAR DESFA-nın səhmlərinin üçdə ikisinin 400 milyon avroya alınmasına dair müqaviləni 2013-cü ilin yayında imzalayıb. Lakin solçu yunan hökuməti bildirib ki, DESFA-nın səhmlərinin 66 faizini yox, 49 faizini SOCAR-a sata bilər.

Məlumdur ki, Rusiya Yunanıstanın indiki solçu hakimiyyəti ilə ciddi anlaşma içərisindədir. Belə ki, TAP-a ilkin dövrdə dəstək vəd edən Yunanıstan Avropa Birliyi ilə gərgin münasibətləri səbəbindən üzünü "Türk axını"na tutub və Rusiyanın yanında möhkəmlənib. Üstəlik, SOCAR-la 400 milyon avroluq müqaviləni də pozmaq istəyir.

Vaşinqton TAP layihəsini ləngidən, Rusiyanın "Türk axını" layihəsinə qoşulmağa qərarlı olan Yunanıstana təzyiq göstərsə də, hələ ki, bunların bir faydası yoxdur.

Azərbaycan prezidenti Bakıda keçirilən neft-qaz sərgisinin iyunun 2-də keçirilən açılışdakı çıxışında TAP layihəsinin icrasında problem yaşanacağına inanmadığını söyləyib.

"Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclası göstərdi ki, bütün tərəflər məsuliyyətini dərk edir. Burada heç kim əlavə güzəştlər əldə etməyə çalışmamalıdır. Çünki bundan hər kəs mənfəət götürür. Yunanıstan, Albaniya və digər Balkan ölkələri Cənub Qaz Dəhlizinin iştirakçısıdır. Bu, həm üstünlükdür, həm də müəyyən mərhələlərdə bir sıra məsələlər ortaya çıxa bilər. Gərək bu məsələlər müzakirə yolu ilə həll edilsin. Qarşımızda heç bir süni əngəl olmamalıdır. Yalnız bu halda Azərbaycan qazının Avropaya nəqlinə başlanacaq. Bu da bizim üçün böyük tarixi hadisə olacaq. Həm böyük ehtiyatlara malik Azərbaycan qazını Avropaya ixrac edəcək, həm də Avropa yeni enerji mənbəyi qazanacaq",- deyə Azərbaycan dövlət başçısı vurğulayıb.

Azərbaycan prezidentinin son çıxışında "heç kim əlavə güzəştlər tələb etməməlidir" sözlərinin Yunanıstana ünvanlandığını təxmin etmək çətin deyil.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

# Sərdar Cəlaloğlunun "hakimiyyətin qalmasına çalışmalıyıq" sözləri reaksiyalar doğurdu

**"Hakimiyyətin qalmasına çalışmalıyıq. Çünki indi beynəlxalq konyukturada Azərbaycanda yeni bir siyasətin aparılması təhlükəli nəticələrə səbəb ola bilər". ADP sədri Sərdar Cəlaloğlu son günlər baş verən siyasi hadisələr barədə hafta.az-a müsahibəsində belə deyib. Müxalifət partiyası sədrinin arqumentlərinə görə, mövcud hakimiyyətin siyasi səhnədən getməsi siyasi kataklizmlərlə müşayiət oluna bilər. ADP sədrinin dediklərinə isə fərqli münasibət var.**



"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev bu fikirləri şərh edərkən bildirdi ki, əslində ADP sədrinin yanaşması yenilik deyil: "Azərbaycan müstəqillik əldə edəndən sonra həmişə burda maraqlar toqquşub. Qarabağ müharibəsini götürsək, onun nəticələri, təbii ki, maraqların toqquşması ilə bağlıdır. Bəlkə ən ağır günlər o vaxt olub, indi deyil. Bu problem indi də qalır. Sadəcə, bir məsələyə diqqət etməliyik: bəli, ayrı-ayrı dövlətlərin Azərbaycanda maraqları var. Amma bu o demək deyil ki, biz bunu nəzərə alaraq nəyin bahasına olursa-olsun bu hakimiyyəti saxlamalıyıq. Söhbət ölkədə siyasi stabillikdən gedirsə, olsun. Amma biz görürük ki, mövcud hakimiyyət ölkəni böhran vəziyyətinə gətirib çıxarıb. Bu böhrandan çıxış yolları var, lakin o yollar ictimaiyyətlə müzakirə olunmur. Biz "yol xəritəsi" görmürük, bizə heç nə demirlər. Bu isə çox ciddi narahatlıq doğurur. Çünki bu vaxta qədər Azərbaycanı inkişaf edən dövlət kimi təqdim edirdilər. Uğurlu siyasət artıq bitib. Ona görə də qeyri-stabilliyi daha çox yaradan bu hakimiyyətdir. Çünki qeyri-stabillik daha çox daxildə iqtisadi böhran, sosial gərginlik deməkdir və bu da insanlarda çox ciddi problemlər yaratmağa başlayır. İnsanların rifahına, yaşayış imkanlarına çox ciddi təsir edir və bu, artıq hər bir ailədə qeyri-stabilliyə gətirib çıxarır".

Ona görə də M.Əliyev hesab edir ki, bu gərginliyi aradan qaldırmaq üçün hakimiyyət operativ şəkildə nəsə təqdim etməlidir: "Bu vaxta qədər biz heç nə görmədik. Biz iqtisadiyyatın böhranını 21 fevralda, manatın devalvasiyasında gördük. Onda açıq bildirdilər ki, çox ciddi problem var. Amma ötən 3 ayda hökumətdən heç bir təklif, plan görmədik. Bax, bu, narahatlıq doğurur. Ona görə də biz problemi ilk növbədə daxildə axtarmalıyıq. Əgər Sərdar Cəlaloğlu deyirsə ki, biz hakimiyyəti saxlamalıyıq, nəyi saxlamalıyıq? Böhran getdikcə dərinləşəcək, vəziyyət pisləşəcək". Ekspert deyir ki, söhbət yeni hakimiyyətdən getmir: "Yeni gələn nə edəcək, bu, mülahizədir. Bəlkə gəlib iki günə vəziyyət düzəldəcək. Söhbət ondan gedir ki, mövcud hakimiyyət, durum və öhdəliklər var. Məni narahat edən odur ki, bu hakimiyyət böhran vəziyyətindən necə çıxacağı və nə edəcəyi barədə indiyədək ortaya bir şey qoymayıb. Böhran getdikcə dərinləşəcək, vəziyyət pisləşəcək. Artıq aprel ayına qədər Mərkəzi Bankın ehtiyatları 15 milyarddan 7 milyarda qədər azalmışdı. Bəziləri deyir ilin sonuna qədər ehtiyatlar tam tükənəcək. Bəs, sonra nə olacaq, manat necə tənzimlənəcək? Yaxşı, manatın devalvasiyası şəraitində vətəndaşlara kompensasiya verilirmi, bəlkə maaş, pensiya artırılıb? Heç nə etmədilər axı. Lakin real olaraq qiymətlər artıb. Bu yaxınlarda Riqada olarkən maraqlandım, qiymətlər bizdəkindən hətta 3-4 dəfə, ən aşağısı 30-40 faiz aşağıdır. Maaş isə iki dəfə artıb. Hansı ki, Riqanın nə nefti, nə qazı var. Bunlar çox ciddi problemlərdir, bəs bütün bunlara kimsə cavab verməlidir, ya yox? Elə yanğın hadisələrinə verilən reaksiyalar hakimiyyətdəki böhranın ciddi göstəricisiydi. Deməli, hakimiyyət daim öz məmurlarını qorumağa çalışacaq və insanları ölümə göndərəcək? Hakimiyyət vəziyyəti dəyişməli, ortaya yeni siyasət qoymalıdır, bunun alternativi yoxdur".



**Mehman Əliyev:** "Qeyri-stabilliyi daha çox yaradan bu hakimiyyətdir"



**Fəzail Ağamalı:** "Sərdar Cəlaloğlunun fikirlərinin tamamilə həqiqəti əks etdirdiyi qənaətindəyəm"

AVP sədri, deputat Fəzail Ağamalı isə hesab edir ki, S.Cəlaloğlunun bu fikirləri təqdir edilməlidir: "Baxın, Azərbaycanda hər zaman radikal mövqeyi, kəskin fikirləri ilə, müxalifətçi olaraq fərqlənən Sərdar Cəlaloğlu bu gün Azərbaycan dövlətçiliyinə qarşı beynəlxalq aləmdə həyata keçirilən təhdidləri, anti-Azərbaycan qüvvələrinin təzyiqlərinin geniş miqyas aldığı dönəmdə və bir sıra anti-milli qüvvələrin həmin anti-Azərbaycan koalisiyasında yer aldığını nəzərə alaraq bunu deyib. Deyərdim ki, bu sözləri ilə kifayət qədər düzgün mövqe ifadə edib. Mən birmənalı olaraq Azərbaycan dövlətçiliyinin ənənələrinin yaranmasını Heydər Əliyevin siyasi kursunda görən bir insanam. Hətta azadlıq mübarizənin getdiyi zaman kəsiyində, AXC-nin qərargahında Ayaz Mütəllibovun istefasından sonra, 1992-ci ilin 9 martında Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət olunması və onun gəlib Azərbaycanda siyasi proseslərə rəhbərlik etməsi təklifilə çıxış etmişəm. Təbii ki, o zaman bu, çox böyük top-tüfənglə qarşılandı. Sonrakı illərdə də hadisələrin gedişi və Heydər Əliyev fenomeni sübut etdi ki, doğrudan da Azərbaycanın müasir dövlətçiliyi, demokratik, huquqi, sabit, dinamik inkişaf edən bir ölkənin bütün taleyi məhz Heydər Əliyev amilindən asılıdır. Sonrakı illərdə mən İlham Əliyevin hakimiyyətə gətirilməsində də birmənalı olaraq prinsipial mövqeyimi partiya sədri olaraq ortalığa qoydum. Biz bununla bağlı geniş təbliğat kampaniyasında aktiv iştirak etdik. Həmçinin prezidentin iki dəfədən artıq seçilmək hüququnun məhdudlaşdırılması ilə bağlı konstitusiya maddəsinin götürülməsi təklifini də irəli sürəndə biz məhz dövlətçilik ənənələrinin Azərbaycanda yaranması prinsipinə söykənmişik. Bu gün onun konkret nəticələrini görürük". F.Ağamalı dedi ki, əgər Azərbaycan konkret zaman kəsiyində bu xətdən çıxarsa, Azərbaycan dövlətçiliyi məhvə məhkumdur: "Baxın, Türkiyədə dövlətçiliyin əsaslarını, onun təməl prinsiplərini Kamal Paşa Atatürk qoyub və o ənənə davam edir. Bu gün o ənənədən zərrə qədər kənara çıxmaq Türkiyənin özündə hansı fəlakətlərə aparır, onun bəzi elementlərini görürük. Bu gün müasir Azərbaycan dövlətçiliyinin də təməl prinsipi Heydər Əliyev amili ilə, bu siyasi kursla bağlıdır, bu siyasi kursun uğurlu davamçısı olan İlham Əliyev amili ilə bağlıdır. Ona görə də hakimiyyət dəyişikliyi Azərbaycana böyük fəlakətlər, faciələr gətirə bilər. Ona görə də Azərbaycanı sevən, ölkənin müstəqilliyini öz həyat amalı kimi qəbul edən və Azərbaycan dövlətçilik ənənələrinin möhkəmlənməsi, Azərbaycanın dövlətçiliyinin güclənməsinə xidmət edən, bunu arzulayan hər bir azərbaycanlı birmənalı olaraq Azərbaycanda hakimiyyət dəyişikliyinin bu və ya digər şəkildə həyata keçirilməsinə qarşı özünün vətəndaşlıq mövqeyini ortaya qoymalıdır. Bu baxımdan mən Sərdar Cəlaloğlunun fikirlərinin tamamilə həqiqəti əks etdirdiyi qənaətindəyəm".

❑ **E.PAŞASOY**

---

# Gürcü Çe Qevarası...



**Hüseynbala SƏLİMOV**

**Artıq hamı eşidib ki, M.Saakaşvili Ukraynada yeni vəzifə aldı. Doğrusu, Saakaşvilinin bu təyinatları bizim üçün bir qədər anlaşılmazdır. Başa düşürük, bu yaşda təqaüdə tələsmək hələ tezdir, o, gənc və enerjili siyasətçidir və bu enerjini nəyəsə sərf etməlidir...**

Amma o, prezident idi, bəli, Gürcüstanın prezidenti olmuşdu. Bunu gərək nəzərə alaydı. Fəqət, qüsuru elə də böyük deyil. Bəlkə də ukraynalıların ağlı olsaydı, bu adamı elə prezident seçərdilər-inanıram ki, o, dörd-beş ilə Ukraynada əsl sahman yaradardı...

Saakaşvili bir aspektdən "təhlükəli"dir - bu adam Rusiya ilə münasibətləri korlaya bilər. Amma Ukraynanın Rusiya ilə münasibətləri o qədər korlanıb ki, onu bir az da korlamaq imkanları xeyli məhduddur...

Ən maraqlısı rusların buna münasibətidir. D.Medvedev bu məsələni şərh edərkən "Yazıq Ukrayna" deməyi də unutmadı. Əslində isə o, başqa bir suala cavab verməli idi: "Rusiya ilə bir olmaq yazıq Ukraynaya nə vermişdi ki, ondan ayrılmaq da qorxulu olsun?"...

Rusiya ilə bir olan Ukraynanın Krım problemi, Şərq problemi yox idi. Bunu etiraf edirik. Amma bu problemləri M.Saakaşvili yaratmadı, Rusiya yaratdı və bu gün də onları inkişaf etdirməklə məşğuldur...

Dərindən düşünsəydi, D.Medvedev öz halına acımalı idi. Bu adam qədər gülməli-komik bir siyasətçi tapmaq çətindir, o rola ki, Medvedev razılaşmışdı onu çoxu özü üçün həqarət sayardı...

Tandemokratiya məsələsi bir vaxt Türkiyədə də aktuallaşmışdı. Amma A.Gül birmənalı şəkildə dedi ki, o, R.T.Ərdoğanın Medvedevi olmaq istəməzdi...

Bilmirik, D.Medvedev öz siyasi personası ilə bağlı insanların düşündüklərindən nə qədər xəbərdardır? Bununla bağlı məlumatımız yoxdur və güman edirik, dünyanın ən qısa boylu siyasətçilərindən biri kimi o, özünün siyasətdə nə qədər kiçik adam olduğunun fərqindədir...

O ki qaldı Saakaşviliyə... Bilirsiniz, bu adam haqqında düşünəndə ilk öncə yadıma kim düşür? Deyəcəm, amma fikirləşirəm ki, bəlkə də siz bununla bir o qədər də razı olmayacaqsınız: o, mənim yadıma Çe Qevaranı salır...

Bəli, mən ona gürcü Çe Qevarası deyərdim. Saakaşvilinin Gürcüstanda olarkən Rusiyanı ifşa etməyə çalışması, indi də onun bunu Ukraynada etməsi mənim bir qədər də əminliyimi artırır... Bəli, o canlı Çedir ki, var - bir az romantik, bir az reallığı nəzərə almayan, amma öz əqidəsində mətin bir insan və bəlkə də siyasətçidən daha çox inqilabçı...

Burada yadıma başqa bir epitet də düşür. M.Mamardaşviliyə də gürcü Kantı deyirdilər. Deyirəm ki, bəlkə orijinal şəxsiyyətlər yetişdirməsi kiçik bir xalqın əslində mənən çox böyük olmasına dəlalət edir?..

Söz yox ki, məhz belədir. Qoy, Rusiya ondan, Saakaşvilinin kölgəsindən qorxsun - gürcü qorxusu, gürcü xofu Rusiya üçün elə də yeni bir hadisə deyil və güman ki, D.Medvedev də bunu bilir...

Düşünürəm ki, Saakaşvilini Çeyə bənzətməyimdə zərrə qədər də mübaliğə və tərif yoxdur. Kimsə onu siyasətdə anomaliya hesab edə bilər. Amma bu adam Gürcüstanda iki dəfə prezident oldu. Orada əməlli-başlı qayda-qanun, sahman yaratmışdı...

Düşünmək gülünc olardı ki, guya Saakaşvili Rusiyanın üzərinə gedərkən böyük səhvə yol verib və nə etdiyini bilməyib. Mən onun BMT-dəki sonuncu çıxışını diqqətlə oxudum. İlk öncə belə təəssürat yarana bilərdi ki, bu adam artıq itirməyə bir şeyi qalmadığını anlayaraq belə çıxış edir. Amma bu, səthi təsəvvürdür...

Saakaşvilinin o vaxt Gürcüstanla bağlı planları bitməmişdi. O, bilirdi ki, bəzi şeyləri bütün çılpaqlığı ilə demək olmaz. Amma deyirdi. Niyə? Ona görə ki, o, siyasətə təkcə post-vəzifə qazandıran bir vasitə kimi baxmırdı...

İndi belə aydın olur ki, hətta Z.Qamsaxurdia da Rusiyada M.Saakaşvili qədər xof yaratmamışdı - ruslar artıq onu unudublar, amma M.Saakaşvilni unuda bilmirlər...

Qoy, unutmasınlar da. Elə insanlar var ki, onlar son nəticədə məğlub olsalar da unudulmurlar - məsələn, Çe kimi... Ya da elə Saakaşvili kimi... Bilirsiniz, bu hadisəni biz Azərbaycanda da yaşamışıq...

Azərbaycanda da deyirdilər ki, bəs filankəs siyasətçi deyil, İran haqqında elə danışır, belə danışır. Amma həqiqətdə belə idimi? Təbii ki, yox. Sadəcə, bizim siyasət haqqında təsəvvürlərimiz fərqlidir, qəbul edə bilmirik ki, belə də siyasət və belə də siyasətçi olur...

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

# Manatın devalvasiyasından... turistlər qazanacaq

**Manatın devalvasiyası I Avropa Oyunları ərəfəsində Azərbaycana gələn turistlərin xeyrinə olacaq. Belə ki, əgər devalvasiyadan əvvəl dollar və avro Azərbaycanda daxil olarkən dəyər itirirdisə, indi əksinə, dəyər qazanır. Manatın dollar qarşısında 35 faiz dəyər itirməsi turistlərə daha rahat və əlverişli şərtlərlə dincəlməyə, alış-veriş etməyə imkan yaradacaq. İqtisadçı ekspertlər də bu fikirdədir ki, devalvasiyadan sonra turistlərin Bakıya marağı artacaq.**

## Samir Əliyev: "Manatın məzənnəsinin dollara nisbətən ucuz olması turistlərə imkan yaradacaq ki..."



İqtisadçı ekspert Samir Əliyev də "Yeni Müsavat"a açıqlamasında bildirib ki, manatın devalvasiyası Avropa Oyunları ərəfəsində Azərbaycana gələn turistlər üçün sərfəli olacaq: "Manatın məzənnəsinin dollara nisbətən ucuz olması turistlərə imkan yaradacaq ki, əllərindəki vəsait manata çevrilərkən əvvəlkinə nisbətən daha dəyərli olsun. Məsələn, Rusiyada rubl ucuzlaşanda bu manatla Rusiyaya gedib alver edənlər üçün sərfəli idi. İndi Azərbaycanda 21 fevralda devalvasiya olmasa idi, bu, Avropadan gələnlərə burada alış-veriş etmək üçün sərfəli olmayacaqdı. İndi manat dollara münasibətdə 35 faiz dəyər itirib. Bu səbəbdən xaricdən gələn turistlər üçün, xüsusilə də dollarla vəsait gətirən xaricilər üçün nisbətən sərfəli olacaq.

Düzdür, digər valyutalarda dəyişmə var. Məsələn, devalvasiyadan sonra türk lirəsi ucuzlaşmağa başlayıb. Əgər dollarla manat arasındakı fərq 35 faiz idisə, türk lirəsi ilə fərq 25 faizə qədər azalıb. Oxşar situasiya avro ilə bağlı da baş verdi. Avro da müəyyən qədər ucuzlaşdı. I Avropa Oyunlarına gələn turistlər əsasən dollar və avro, qismən də rus rublu ilə ölkəyə daxil olacaqlar. Bu baxımdan demək olar ki, Azərbaycanda qiymətlər onlar üçün daha ucuz olacaq. Burada onu da nəzərə almaq lazımdır ki, hökumət devalvasiyadan sonra inzibati üsulla olsa belə qiymətlərin artmasına imkan vermədi. İstənilən ölkədə devalvasiya baş verirsə, orada alış-veriş etmək sərf edir".

Ekspert onu da vurğulayıb ki, turistlər üçün təkcə qiymət əsas deyil, keyfiyyət də bir o qədər önəmlidir: "Otellərin qiyməti Bakı üçün həddindən artıq yüksəkdir. Əgər eyni qiymətlər Parisdə və ya Londonda olsa, bu, turistlər üçün başadüşüləndir. Lakin Bakı üçün bu qiymətlər çox baha hesab olunur. Avropanın ən gözəl şəhərlərində otel qiymətləri bundan daha ucuzdur. Turistlər heç zaman beşulduzlu oteldə qalmır, onlara üç-dörd ulduzlu otellər də kifayət edir ki, vəsaitlərinə qənaət etsinlər. Azərbaycanda xidmətin keyfiyyəti də qiymətə adekvat deyil. Xidmət səviyyəsi daha aşağıdır. Parisdə istənilən insan 100 avro verib hansısa oteldə qalar. Ancaq Bakıda kimsə bunu verməz. Bu səbəbdən məsələyə təkcə valyuta kontekstində baxmaq olmaz".

S. Əliyev dedi ki, Avropa Oyunlarının ölkəmizdə keçirilməsinin bir üstünlüyü də turist cəlb etməkdir: "Biz turistlərə göstərməliyik ki, bizdə belə turizm imkanları var".

❑ Nərgiz LİFTİYEVA

# "Balalarıma gün ağlamağa ehtiyacım var...."

## Anar Nağılbaz mühacirət iddialarına aydınlıq gətirdi


Anar Nağılbaz

**Bu günlərdə sosial şəbəkədə reper Anar Nağılbazın ölkəni tərk etdiyi, Çexiyada siyasi sığınacaq istəməsi ilə bağlı xəbərlər yayıldı. Bu söhbətin yayılmasına səbəb isə Polşada siyasi mühacirət alan hüquq müdafiəçisi Mətanət Əzizovanın statusu idi. Mətanət xanım statusunda "siz orada mübahisə etdiyiniz zamanda o da burda klip çəkir. İki ulduz)))" yazaraq polemikalara start vermişdi.**

Bu statusun ardınca 1news.az saytı da reperin mühacirət etməsi barədə geniş məqalə dərc etdi. Həmin məqaləyə görə A.Nağılbaz "azül"(mühacirət) üçün artıq müraciət edib. Yazının sonunda reperin Polşa kanallarından birinə verdiyi müsahibə də yayımlanıb. Çex dilini bilməyənlər üçün həmin süjetdə nə dediyi qaranlıq qalır. Amma bununla paralel süjetdə "miqrant" sözünün tez-tez işlənməsi, qaçqın düşərgələrindən görüntülərin verilməsi diqqət çəkir.

Reperin atası, sabiq deputat Rizvan Cəbiyev də artıq bu mövzu ilə bağlı açıqlama verib. O, bildirib ki, Anar öz vətənini sevən, vətənpərvər bir insandır: "İnanmıram ki, belə bir qərar qəbul etsin. Yox, əgər öz dövlətinin əleyhinə gedəcəksə, mən öz oğlumdan imtina edəcəyəm. Anar uşaq deyil, o, belə bir şey edə bilməz".

"Mən müalicə və istirahətdəyəm, heç kimə məlumat verməyə həvəs-halım yoxdur. Məni yaxından tanıyanlar bilir vəziyyətimi, bəsimdir. Çex televiziyasında qaçqınlar haqqında çəkəcəyim veriliş barədə müsahibə verərkən kadrda yer almışam. Babalı yozanların boynuna! Fikir versəniz, verilişdə də 1-2 bənd sadəcə rep deyirəm. O da dostların xahişi ilə". Reper bunu anspress.com saytına açıqlamasında bildirib.

"Yeni Müsavat"ın sualına cavabda isə A.Nağılbaz dedi ki, "mənim müalicə olub, öz ailəmin üstündə olmağa, onları ac-susuz qoymamağa, balalarıma gün ağlamağa ehtiyacım var". Reper mühacirət etməsi ilə bağlı yazılanları isə yalan adlandırdı. Dedi ki, hazırda həm klip çəkdirir, həm də müalicə olunur.

Xatırladaq ki, Anar Nağılbaz ailəlidir, iki övladı var. O 1974-cü il mart ayının 28-də Bakı şəhərində dünyaya gəlib. 1988-ci ildən repə maraq göstərməyə başlayıb və 1990-cı ildə ilk dəfə Yaltada "Beynəlxalq gənc mətbuatçılar festivalı"nda "Bivəfa" repini ifa edib.

❑ Sevinc TELMANQIZI

# "Gəncəbank"ın rəhbərinin vəkili redaksiyaya məktub yolladı

## Firudin Ələkbərli: "Natalya Kərimovanın vəkillərinin mətbuata verdikləri məlumatlar yalandır"

**"Gəncəbank" ASC-nin Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın hüquqi nümayəndəsi Firudin Ələkbərli "Yeni Müsavat"ın redaksiyasına məktub yollayıb. Həmin məktubu qısa ixtisarla dərc edirik.**




"Hörmətli redaksiya!

Son vaxtlar "Yeni Müsavat" qəzetində "Gəncəbank" ASC-nin Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın barəsində silsilə məqalələr dərc edilir. Həmin məqalələrdə Pərvanə Novruzovanın Natalya Kərimova adlı şəxsə qarşı guya bir sıra ağır cinayətlər törətməsi, onun əmlakını saxtakarlıqla, zorla ələ keçirməsi və s. barədə bəhs olunur.

Özlərini tanınmış vəkil kimi təqdim edən Yusifov Ceyhun və Qənbərov Əziz getdikcə daha qorxunc bəyanatlar verirlər. Bu kimi hədələrin barəsində xalqımızın çox kəskin və ağıllı deyimləri vardır və təbii ki, buna o qədər də əhəmiyyət vermirik. Sadəcə olaraq qəzetinizin reytinqindən bu şəxslərin sui-istifadə edərək özlərini reklam etmək cəhdlərinə (hesab edirəm ki, onlar yaxın vaxtda həqiqətən tanınacaqlar) cavab verməyə bilmirəm. Bu şəxslər hətta mənə ağıl vermək xəyalına da düşüblər.

Nəzərinizə çatdırım ki, həmin şəxslər məhkəməyə veriliblər və iş Kəlbəcər Rayon Məhkəməsindədir. Özləri də zəng edib öyrəniblər. Özü də onlardan birinin qeydiyyatı Kəlbəcər rayonu olduğuna görə həmin məhkəməyə müraciət olunub. Həmin Kəlbəcərdən olan şəxs Kəpəz Rayon Məhkəməsində yazdığı şikayəti təsdiq etməyə cürəti çatmadı və bunları Natalyadan eşitdiyini bildirdi. Özü də hələ ki, Kərimova Natalyanın onunla vəkil kimi müqavilə bağlamadığını, yalnız etibarnamə əsasında çıxış etdiyini dedi. Yazdıqlarını təsdiq etmədi.

Onların bəhs etdiyi cinayət işinin nömrəsi 52547-dir. Cinayət işi Kərimova Natalyanın şikayəti əsasında Pərvanə Novruzovanın barəsində AR CM-in 158.2.-ci maddəsi ilə (hüquqi şəxslərin binalarının toxunulmazlığını pozma) başlanmışdır. İstintaqın gedişində Novruzova Pərvanə tərəfindən belə əməl törədilmədiyi aşkar edilmiş, əksinə, Kərimova Natalya istintaqa saxta sübutlar təqdim etdiyinə görə onun barəsində AR CM-in 296.2., 320.2.-ci cinayət işi başlanmış, cinayətin törədildiyi sübuta yetirilmiş, Kərimova Natalya 07.02.2002-ci ildə təqsirləndirilən şəxs qismində cəlb edilmişdir. Daha sonra o, qaçıb gizləndiyinə görə barəsində olan cinayət işinin istintaqı üzrə icraat 12.02.2002-ci ildə dayandırılmış, Kərimova Natalyanın barəsində həbs və axtarış elan edilmişdir. Hazırda onun respublikaya gəlib-gəlməməsi və ya hansı yolla gələ bilməsi araşdırılır.

Hesab edirəm ki, onun verdiyi ehtimal olunan etibarnamənin həqiqiliyi araşdırılandan sonra bu vəkillər həqiqətən də tanınmış olacaqlar. Həmin vəkillərin KİV-lərdən oxuduqları məlumatı yaymalarına gəldikdə isə, məlumatı yayan şəxs özü məsuliyyət daşıyır.

Əlavə olaraq bildirirəm ki, bu şəxslərin məhkəməyə yazdıqları ərizədə buraxılmış üslub və qrammatik səhvlərə görə adam xəcalət çəkir. Həmin şikayətin surətini onlardan istəyin, verməsələr, mən göndərərəm və onların elmi səviyyəsi barədə fikirləriniz dəqiqləşər. Məsələn, adamlar yazıb ki, guya Kərimova Natalya Heydər Əliyev hakimiyyəti dövründə şikayətlərinə baxılmadığına görə qaçıb gedib. Amma indi qayıdıb gəlib. Məntiq yoxdur. Əvvəla, mərhum prezident Heydər Əliyevin idarəçilik qabiliyyət çox yüksək olub, indikindən də yüksək olub. İkincisi, baş prokuror da, daxili işlər naziri də eyni şəxslərdir. Nə dəyişib ki? Vəkil adlanan bu şəxslərin siyasi, hüquqi və sair şantajları yersizdir, əsassızdır və uzaqbaşı özləri kimilərini qorxutmaq üçündür".

Xatırladaq ki, Natalya Kərimova mətbuata müraciət edərək Pərvanə Novruzovanın onun Gəncə şəhərində olan əmlakını zorla əlindən aldığını deyib. Üstəlik, qadın bildirib ki, P.Novruzovanın adamları onu və qızını zorlamaqla təhdid ediblər. Bütün bunlardan sonra Azərbaycanı tərk etmək məcburiyyətində qaldığını bildirib.

❑ E.HÜSEYNOV

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015



# Qarabağ məsələsində iyun dönüş ayı olacaq?

## Rusiyanın Azərbaycana Qarabağ vədi verdiyi deyilir; Putinin qarşıdakı Bakı səfəri tarixə düşə bilər, əgər...

**ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin regiona səfəri çərçivəsində Bakı ziyarəti yekunlaşdı. Gözlənildiyi kimi, təşkilat sədrinin Azərbaycanın prezidenti, parlamentin spikeri və xarici işlər naziri ilə görüşlərində əsas mövzu Dağlıq Qarabağ məsələsi oldu.**

ATƏT rəhbəri bu görüşlərdə hansısa təklif irəli sürmədi, əvəzində isə Bakının problemin həllinin uzanması ilə bağlı haqlı qınaqlarını eşidəsi oldu. Əslində cəmi bir illiyə fəaliyyət göstərən ATƏT sədrindən Qarabağa dair konstruktiv təkliflər ummaq məntiqsizlik olardı. 25 ildə Daçiçin onlarla sələfi təşkilatda icraçı sədr olublar və heç bir irəliləyiş də olmayıb.

Bunun da başlıca səbəbi odur ki, Qarabağ konfliktinin həlli beynəlxalq təşkilatlardan qat-qat çox, iri dövlətlər, konkret olaraq Rusiya və ABŞ-dan asılı durumdadır. Bu iki supergücün məsələdə mövqeyi, maraqları isə hazırda nəinki üst-üstə düşmür, üstəlik, Ukrayna böhranından sonra daha kəskin şəkildə toqquşur.

Rusiyaya gəlincə, Moskva Güney Qafqazın ən üzücü ixtilafını əlində real rıçaqlar ola-ola həm çözməyə tələsmir, həm də problemin həllində patronajlığın Qərbə keçməsinə qarşıdır. Ancaq Kreml vaxtaşırı özünü elə göstərməyə çalışır ki, guya o da problemin həllinə çalışır. Yəni görüntü məsələsi. Münaqişə tarixində dəfələrlə bunun şahidi olmuşuq.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun son Moskva səfəri bu qənaəti daha da möhkəmlətdi. Yəni aydın oldu ki, şimal qonşumuz ənənəni mövqeyində qalır. Bu mövqenin qayəsi isə yuxarıda deyildi. Ayrı sözlə, nə qədər ki, Moskva İrəvana konfliktin həlli ilə bağlı təsirlər göstərməyə başlamayıb, Rusiyanın Qarabağ məsələsində fəallaşacağını gözləməyə, yaxud "fəallıq göstərməsini" ciddiyə almağa dəyməz. Yerdə qalanlar yalnız imitasiya kimi, Bakının könlünü almağa yönəlmiş cəhdlər kimi qəbul olunacaq.

***

Məsələn, bu arada Rusiyanın nüfuzlu "Soverşenno sekretno" ("Tam məxfi") nəşri yazıb ki, guya Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana söz verib (avropa.info). Qəzet Elmar Məmmədyarovun Moskva səfərinə toxunaraq qeyd edib ki, Lavrov azərbaycanlı həmkarı ilə apardığı danışıqların sonunda münaqişənin Rusiya üçün prioritet məsələ olduğunu bildirib.

Nəşr iddia edir ki, Lavrovun "Qarabağ problemini hamıya aydın danışıqlar dilinə keçirmək lazımdır" sözləri çox mətləblərdən xəbər verir. "Münaqişənin həlli çox uzanıb, bunu heç kəs inkar etmir. Razılaşmaya gəlmək üçün real baza var. Bununla hamı razıdır. İndi qarşılıqlı anlayışın konkret həll yollarına çevrilməsi zamanıdır" - deyib Rusiya XİN başçısı. Lavrov tərəfləri əmin edib ki, Rusiya münaqişənin həlli yollarının tapılmasında kömək etməyə hazırdır.




"Sergey Lavrov Rusiyanın Qarabağ münaqişəsinin həllinə əsas mövzu kimi baxdığını açıqladı. Bu, əslində Bakıya açıq mesajdır. Yəni Rusiya da münaqişənin uzanmasından yorulub. Rusiyanın baş diplomatı da "münaqişənin həlli çox ləngiyib, bunu inkar etmirik" deyir. O, azərbaycanlı həmkarını bu istiqamətdə maksimum addım atacaqlarına inandırdı. Bunlar ictimaiyyətə açıqlanan məsələlərdir. Halbuki iki nazir bağlı qapılar arxasında daha ciddi müzakirələr aparıblar. Mediaya açıqlamalarında xoş münasibətləri qapalı görüşün uğurlu keçdiyini deməyə əsas verir. Görünür, Moskva Bakıya Qarabağla bağlı söz verib" - nəşr qeyd edib.

***

Lakin belə bir vəd varsa da, onun arxasında hələ ki, real fəaliyyətin durmadığını Elmar Məmmədyarovun az sonra "Nezavisimaya qazeta"ya verdiyi müsahibə təsdiq edir. Nazir deyib: "Beynəlxalq hüquq normalarını pozan Ermənistan Azərbaycan ərazisində İrəvandan olan ali vəzifəli şəxslərin iştirakı ilə hərbi təlimlər keçirir. İşğal olunmuş əraziləri Suriya və Livandan olan qaçqınlarla doldurmaq istiqamətində cəhdlər göstərir. Bütün bu uzaqgörən olmayan addımlar və mənfi elementlər münaqişənin sülh yolu ilə həlli prosesinə maneə törədir. Minsk Qrupunun həmsədr ölkələrinin başçılarının dediyi kimi, işğal və təcavüz nəticəsində yaranan status-kvo qəbuledilməzdir. Ermənistan ilk növbədə öz qoşunlarını işğal olunmuş torpaqlardan çıxarmalıdır. Bizim mövqeyimizin siyasi və hüquqi əsasında beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, BMT TŞ-nin 4 qətnaməsi və digər beynəlxalq sənədlər dayanır. Həmin qətnamələrə əsasən, Ermənistan silahlı qüvvələri dərhal, qeyd-şərtsiz və tam şəkildə işğal olunmuş torpaqlardan çıxarılmalıdır. Təəssüf ki, bu tələblər 20 ildir yerinə yetirilmir. Ermənistan bunlardan imtina edir".

E.Məmmədyarov ötən ilin prezidentlərin görüşü baxımından danışıqlar prosesində intensiv il olduğunu qeyd edib və bildirib ki, Ermənistan bütün çağırışlardan imtina edir: "Azərbaycan dəfələrlə Böyük Sülh Sazişi üzərində işə başlamağa hazır olduğunu bəyan edib. Biz hesab edirik ki, bu münaqişənin həlli istiqamətində irəliləyiş əldə etmək üçün Minsk Qrupu həmsədrləri və onların sülhyaradıcı missiyaları Ermənistanı sülhə vadar etməklə bağlı tədbirlər görməlidir".

***

İş də ondadır ki, nə ABŞ və Avropa Birliyi, nə də Rusiya beynəlxalq təşkilatların qərar və qətnamələrini əsas götürüb işğalçını sülhə vadar eləmək əvəzinə, ona hər cür siyasi-diplomatik, hərbi və maddi dəstək verməkdə davam edirlər.

Bəzi analitiklərə görə, Kremlin Qarabağla bağlı daha konkret hədəfləri var və o, Azərbaycandan istədiyini almayınca İrəvana təzyiq göstərməyəcək. Moskvanın Bakıdan umacaqları isə kiçik məsələlər deyil. Söhbət Dağlıq Qarabağda sülhməramlı qüvvələr adı ilə rus qoşunlarının yerləşdirilməsindən və Azərbaycanın Putinin Avrasiya layihələrinə qoşulmasından gedir. Azərbaycan buna gedərmi?

Çətin, çünki yaxın tarixin acı təcrübəsi var. Biri elə qonşu Gürcüstan: Abxaziya və Cənubi Osetiyada Rusiya "mavi dəbilqəlilərin" mövcudluğu ona gətirdi ki, 2008-ci ildə Moskva Tiflisə qarşı apardığı "5 günlük müharibə"nin sonunda bu iki separatçı bölgəni de-yure də özünə birləşdirdi.

Bununla belə, yenə bir sıra ekspertlər istisna eləmirlər ki, Moskva İrəvana təzyiq edib, Dağlıq Qarabağ ətrafındakı ərazilərin boşaldılmasına nail ola, Azərbaycan isə bunun qarşılığında Avrasiya Birliyinə üzvlük barədə düşünə bilər. Yəni Kreml Azərbaycanı öz siyasi orbitində görmək istəyirsə, ən azından bu yöndə fəallıq göstərməli, Qarabağ münaqişəsinin həllini təmin etməlidir.

***

Bundan ötrü Rusiyanın işğalçıya təzyiqləri qaçılmazdır. Lakin üfüqdə belə bir şey görünmür. Əksinə, Lavrov Moskvada Məmmədyarovla görüşdən sonra bir daha Kremlin ənənəvi mövqeyini ifadə edərək bildirdi ki, "münaqişənin həlli üçün öncə Azərbaycanla Ermənistan razılığa gəlməlidir". Bu isə mümkünsüzdür, çünki Ermənistanın ipi çoxdan öz ağasının - Rusiyanın əlindədir və İrəvan məsələdə söz sahibi deyil...

Moskva illərdir belə bir mövqe sərgiləyir. Görəsən, Putinin qarşıdakı Bakı səfəri ilə tilsim qırılacaqmı? Əlbəttə ki, Kreml başçısı istəsə, onun iyundakı Azərbaycan səfəri münaqişənin həllində ciddi dönüş kimi də tarixə düşə bilər. Moskva Bakıya doğrudan da Qarabağ vədi veribsə, niyə də olmasın?




# Qarabağ üzrə məruzəçisi Türkiyə vətəndaşı oldu

**Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ məruzəçisi Robert Valter Türkiyə vətəndaşlığı alıb. APA-nın "Sabah" qəzetinə istinadən verdiyi məlumata görə, Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu Londona səfəri zamanı şəxsən imzaladığı Türkiyə pasportunu Robert Valterə təqdim edib.**

"Onun özü Türkiyə vətəndaşı olmaq istədi və biz də bu prosesi sürətləndirdik", - deyə nazir Türkiyənin Londondakı səfirliyində keçirilən mərasimdə söyləyib. Valter isə türkcə çıxış edərək həyat yoldaşı Fəridə xanımla Türkiyədə gözəl günlər keçirməyi səbirsizliklə gözlədiyini deyib: "Bu gün türkiyəli oldum. Çox xoşbəxtəm".

Qeyd edək ki, R. Valterin həyat yoldaşı Fəridə xanım türkdür və onlar 2011-ci ildə ailə həyatı qurublar. Britaniyalı parlamentarın Türkiyə vətəndaşı olması Ermənistan mətbuatında ciddi səs-küyə səbəb olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015



## Həcc ziyarəti üçün təklif olunan ucuz yerlər artıq dolub

**Azərbaycanlı zəvvarlar üçün bu il Həcc ziyarətinə təklif olunan iki variantdan nisbətən ucuz yerlər artıq dolub. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, təxminən 1500-dən çox zəvvar 4700 ABŞ dolları dəyərində olan səfər xidmətinə sənəd verib.**

Bildirilib ki, nisbətən baha, 5750 dollarlıq səfər xidməti üçün də yerlər məhduddur və yaxın 20 gündə dolması gözlənilir.

Xatırladaq ki, bu il ümumilikdə Azərbaycana Həcc ziyarəti üçün 3700 nəfərlik yer ayrılıb.

Qeyd edək ki, hər il olduğu kimi, bu il də zəvvarlara ziyarətin iki formada təklif olunmasına baxmayaraq, qiymətlərdə artım var. Daha yaxşı şəraitli hotellərdə qalmaq, bahalı yeməklərlə təmin olunmaq, o cümlədən hotellərdə 4 nəfərlik otaqlarda yerləşdirmə şərti təklif olunan variantın xərci 5750 dollar, nisbətən ucuz şəraitli, 6 nəfərlik otaqlı hotellərdə qalmaq üçün təklif olunan variant isə 4700 dollardır. Zəvvarlardan sənəd qəbulu üçün pasport, şəxsiyyət vəsiqəsinin surəti, 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil və sağlamlıq haqqında arayış tələb olunur. Sənədlərin qəbulu yalnız QMİ-də aparılır. Yaxın Şərqdə baş verən hadisələrlə əlaqədar olaraq ziyarət yalnız təyyarə reysləri ilə baş tutacaq, avtobusla olmayacaq. Bu il ilk dəfə olaraq ziyarət xərcləri ABŞ dolları ilə aparılır.

# "Banklar əvvəl-axır birləşməli olacaqlar"

### Ekspert: "Bankların birləşməyə qarşı müqaviməti lüzumsuzdur"




**Ölkə banklarının birləşməsi məsələsi yenə aktualdır. Bir neçə gün əvvəl bu təklifi Asiya İnkişaf Bankının (AİB) təmsilçisi səsləndirib. Qurumun Mərkəzi və Qərbi Asiya Departamentinin dövlət idarəçiliyi, maliyyə və ticarət sektoru şöbəsinin direktoru Betti Uilkinson bildirib ki, Azərbaycanda bankların konsolidasiyası həyata keçirilməlidir. Trend-in məlumatına görə, Betti Uilkinson deyib ki, Azərbaycan kimi ölkə üçün 45 bank çoxdur: "İlk növbədə, bank sahəsində idarəetmə sisteminin nə dərəcədə yaxşı təşkilinə və bankların hansı maliyyə mənbələrinin olduğuna baxmalıyıq. Onların müştəri bazasına və inkişaf strategiyasına baxmaq, sonra kiçik bankları daha böyük banklarla birləşdirmək lazımdır".**

B.Uilkinson qeyd edib ki, konsolidasiya dünyanın bir çox ölkələrində həyata keçirilən normal prosesdir: "Hələlik Asiya İnkişaf Bankının Azərbaycan banklarından birində pay sahibi olmaq və mümkün birləşmədə iştirak etmək kimi planı yoxdur. Bizə belə bir sorğu daxil olsa, əlbəttə, onu nəzərdən keçirəcəyik. Lakin hələlik belə bir müraciət daxil olmayıb".

Ekspertlər isə bildirirlər ki, ixtisarlar qaçılmazdır. Ekspert Samir Əliyevin sözlərinə görə, Azərbaycanda bankların sayının çoxluğu məsələsi yeni deyil: "Asiya İnkişaf Bankı bu məsələni qaldıran ilk beynəlxalq maliyyə institutu deyil. Neçə illərdir ki, Beynəlxalq Valyuta Fondu və Avropa İnkişaf və Yenidənqurma Bankı bu məsələnin vacibliyini qeyd edir. Yerli ekspertlər bu ideyanı dəstəkləyir. Hətta Mərkəzi Bank da bankların sayının azalmasını istəyir. Mərkəzi Bank hər il bankların konsolidasiyasını özünün əsas prioritetlərindən biri elan etsə də bu istiqamətdə nəticə əldə edə, bilmir. Bir sözlə, hamının fikri üst-üstdə düşsə də, banklar könüllü birləşmək istəmirlər. Çünki hərəsi bir mənbəyə bağlıdır, sərbəst qərar verə bilmirlər".

Ekspert qeyd edib ki, müstəqilliyinin ilk illərində Azərbaycanda bankların sayı hətta 200-dən də çox olub: "1995-ci ildən başlayaraq Mərkəzi Bankın sərt tədbirləri, o cümlədən nizamnamə kapitalının minimal həddini artırması nəticəsində bankların sayı 5 dəfəyədək azalıb. Ancaq Mərkəzi Bankın konsolidasiya istiqamətində atdığı sonuncu addım bəhrəsini verməyib. Belə ki, 2012-ci ildə bankların məcmu kapitalına dair tələb 50 milyon manata qaldırılanda gözlənilirdi ki, bir sıra banklar bazarı tərk etməli olacaq. Hətta bankların yenidən təşkili qaydalarının yeni redaktədə qəbulu bu ümidləri bir az da artırdı. Ancaq Mərkəzi Bank möhlət müddətini 1 il uzatmaqla 20-dək bankı bağlanmaqdan xilas edə bildi. Buna baxmayaraq, 4-5 bank tələbi yerinə yetirə bilmədi. Mərkəzi Bank onların bağlamaq fikrindən vaz keçdi. Səbəb, əlbəttə, iqtisadi baxımdan həssas dövrün olmasıdır. Hazırda ölkədə 45 bank fəaliyyət göstərir. Onların 2-si dövlət, 43-ü özəldir. Özəl bankların 24-ü xarici kapitalıdır".

S.Əliyev də vurğulayıb ki, Azərbaycanda bankların sayı çoxdur. Ölkədə əhalinin hər 100 min nəfərinə 0,5 bank düşür. "Bu göstəriciyə görə MDB-də ilk yerləri bölüşürük. Şərqi və Mərkəzi Avropa ölkələrində bu rəqəm 1-3 civarında dəyişir. Artıq neçə illərdir dünyada bankların konsolidasiyası prosesi gedir. Konsolidasiya xüsusilə 2009-cu ildəki qlobal maliyyə böhranından sonra daha da aktuallaşdı. Dünyada əvvəllər bankların sayının azaldılaraq şəbəkələşməsi siyasətinə üstünlük verilirdi. Ancaq internet və mobil bankçılığın inkişafı əhaliyə xidmətdə yeni yanaşma gətirdi. İndi hətta filialların bağlanması prosesi gedir. Azərbaycan da dünyada baş verən proseslərin tərkib hissəsi olaraq müasir texnologiyaları bank sektoruna tətbiq etməyə başlayıb. Bunun nəticəsi olaraq ixtisarlar qaçılmazdır" deyə, o, qeyd edib.

S.Əliyevin sözlərinə görə, bankların sayına bir çox amillər, o cümlədən makroiqtisadi amillər təsir göstərir: "Bura inflyasiya, adambaşına düşən ümumi daxili məhsulun həcmi və sair kimi amillər daxildir. Adambaşına düşən ÜDM-in həcmi artdıqca bank xidmətlərinə tələbat da artır. Pul köçürmələrinin həcmi artır, kreditlərə tələbat artır, depozit baza artır və sair. Azərbaycan iqtisadiyyatı üçün, fikrimcə, 20-25 bankın olması kifayət edir. Bank sektorunda həmin bankların payı 90 faizə yaxındır. Bank sistemi məhz onların çiynindədir. Yerdə qalan 20 bankın bazar payı 10 faiz civarındadır. Bankların sayının çoxluğu ilk baxışdan rəqabətin güclü olması təsəvvürü formalaşdırır. Ancaq, təəssüf ki, bizdə bank sektorunda rəqabət çox zəifdir. Yeganə rəqabət əmanət qoyuluşunda oldu və onun da nəticəsi əmanətlər üzrə faiz dərəcəsinin artmasına gətirib çıxartdı. Ölkə iqtisadiyyatı üçün vacib olan kreditləşmə rəqabətdən kənarda qaldı. Neft gəlirlərinin azalması fonunda iqtisadiyyata yönəldilən büdcə pullarının məhdudlaşdırılması və buna görə də qeyri-neft sektorunun zəifləməsi, devalvasiya bankların gəlirlərini kəskin azaldıb. Kreditləşmənin zəifləməsi də banklara zərbə vurur. Onsuz da bankların müştəri kontingenti məhduddur. Bir müştəri eyni zamanda bir neçə bankın xidmətindən yararlanır. Onların bir hissəsinin ya kredit tarixçəsi pisləşib, ya da məşğulluqda kənarda qalıblar. Bütün bu problemlər konsolidasiya məsələsini yenidən gündəmə gətirib".

S.Əliyev deyib ki, bankların birləşməyə qarşı müqaviməti lüzumsuzdur: "Əvvəl-axır birləşməyə getməli olacaqlar. Bunun həm mövcud iqtisadi durum tələb edir, həm də bank sisteminin dayanıqlığı üçün vacibdir. Ancaq Asiya İnkişaf Bankının dediyi kimi, kiçik bankların böyüklərə birləşməsi yox, kiçiklərin biri-biriləri ilə birləşməsi yaxşı olardı. Bu, ölkənin bank sistemində təmərküzləşmə səviyyəsini də azaldardı. Hazırda təmərküzləşmə səviyyəsi 55 faizdir".

❑ Röya RƏFİYEVA

# Qazaxda "bank qurbanları" aclıq aksiyasına başlayıblar

### Vətəndaşları aldadan bağça müdirəsi həbs edilib; məhkəmə məcburi şəkildə kreditlərin ödənilməsi barədə qərar çıxarıb

**Xəbər verdiyimiz kimi, Qazaxın Xanlıqlar kəndinin sakinləri iyunun 1-dən etibarən aclıq aksiyası keçirirlər. Buna səbəb uşaq bağçasının müdirəsi Xatirə Əsgərova tərəfindən aldadılaraq adlarına kredit götürülməsidir. Aksiya nəticəsində iştirakçıların bəzilərinin səhhətində problemlər yaranıb. Vətəndaşları aldadan bağça müdirəsi artıq həbs edilib.**



İyunun 2-də icra başçısının iştirakı ilə narazı sakinlərlə görüş keçirilib. Bu barədə "Yeni Müsavat"a Azərbaycan Demokratiya və Rifah Hərəkatının Qazax rayon təşkilatının sədri Nizami Haqverdiyev məlumat verdi. O, aksiyanın keçirilməsi səbəblərindən danışdı: "Vətəndaşları aldadaraq onların adına kredit götürülüb. 9 ay ödənişlər dayandırılıb. Məhkəmə və bankın bu barədə bildirişi olmayıb. 9 aydan sonra isə götürülən məbləğ ikiqat artıb. Yəni üstünə bu qədər də faiz gəlib. Vətəndaşların maaş və pensiyaları məhkəmə qərarı ilə birbaşa banka köçürülür. Faizlərin artırılmasına görə sakinlər etiraz edirlər. Vaxtında bu məsələ bizə deyilməli idi. 9 ayda harada idiniz? Məqsəd sakinləri soymaq, özlərindən asılı vəziyyətdə saxlamaqdır. Bir-iki nəfərin dələduzluğu ilə məsələ bu yerə çatdı. İcra hakimiyyətində görüş keçirildi. Rayon rəhbəri banklardan kömək istədi. Çıxışımda istintaq müddətində ödənişlərin dayandırılmasını tələb etdim. Bank borcu olanları məhkəməyə verib. Sakinlərin iştirakı olmadan məhkəmə olub və qərar çıxarılıb. Məcburi şəkildə ödəniş edilməsi tələb olunub".

ADR-in təşkilat rəhbəri tələblər irəli sürdüklərini də qeyd etdi:

"Tələblərimizə əməl olunmasa, aksiyamız davam edəcək. Aksiya Aldadılan bir vətəndaşın evində keçirilir. İstintaq müddətində ödənişlər dayandırılmalıdır. Əlbir olub insanları aldadıblar. Aksiyanı keçirənlər aldadılmış kənd sakinləridir. Təşkilat sədri kimi bu məsələyə qarışmışam. Vətəndaşlar məndən kömək istədilər. 3 aydır əlimdən gələni edirəm. İstintaqın sonunda bank tərəfin istədikləri həyata keçsə, mən də aclıq aksiyasına qoşulacam. Hazırda aksiyanı bankdan adlarına kredit götürülən şəxslər keçirir. Mənim borcum yoxdur. Çünki bu hakimiyyət mənə kredit vermir. Rayonda "qara siyahı"da olan şəxslərdən biri də mənəm".

Qeyd edək ki, təkcə Xanlıqlar kəndində 183 nəfər X.Əsgərovanın "kredit əməliyyatı"nın qurbanı olub. Bağça müdirəsi bu insanların ona olan etimadından sui-istifadə edərək adlarına "Zaminbank", "Beynəlxalq Bank", "Kredaqro" Qeyri-Bank Kredit Təşkilatı, "Finca-Azərbaijan" Qeyri-Bank Kredit Təşkilatı və "Kapital Bank"ın Qazax şöbələrindən kredit götürüb. Elə adam var ki, onun adına bu bankların hamısından kredit götürülüb.

X.Əsgərovanın adına kredit götürdüyü şəxslər arasında, ümumiyyətlə, heç yerdə işləməyən, bu kreditlərdən xəbəri olmayan, hətta fiziki qüsurlu insanlar da var.

Mövzunu diqqətdə saxlayacağıq.

❑ Cavanşir ABBASLI

Yeni Müsavat
N 119 (6147) 3 iyun 2015



# Suriyada savaş yeni mərhələyə qədəm qoyur

**Bəşər Əsədin ordusu ölkənin içərilərinə çəkilir; bunun manevr, yaxud məğlubiyyət olduğu bilinməsə də, böyük savaşın tərəflərin birinin məğlubiyyətinə qədər davam edəcəyi ehtimal olunur...**

**Suriyada yazın gəlməsi ilə şiddətlənən döyüşlər savaşan qruplar arasında mövqe dəyişikliyinə səbəb olub. Ölkənin şimalında İdlib, Cisr əş-Şuğr kimi Türkiyə sərhədlərinə yaxın bölgələrdə "Fəth ordusu" birliyi, "ən-Nusra" və digər radikal islamçı qrupların hücumları qarşısında hökumət qüvvələri geri çəkilib və böyük bir ərazi müxaliflərin əlinə keçib. Hazırda bölgədə mövqe savaşları davam etsə də, 2013-cü ildən sonra şimal bölgələrində ordunun növbəti geri çəkilməsi baş verir.**

Bundan başqa Dəməşq ətrafında, eləcə də İraq sərhədinə yaxın bölgələrdə İŞİD qüvvələri yenidən fəallaşaraq Tədmur (Palmira) şəhərini və eləcə də İraq-Suriya sərhəd keçid məntəqəsini ələ keçirib. Hökumət qüvvələri yalnız Livan sərhədlərinə yaxın bölgədə, o cümlədən Qələmun bölgəsində Livan "Hizbullah"ının dəstəyi ilə hücuma keçərək bir sıra bölgələri azad edib.

Ancaq ümumilikdə hazırda Suriyada hərbi vəziyyət Bəşər Əsəd qüvvələrinin xeyrinə deyil. 4 ildən artıqdır davam edən savaşda yorulan və güc itirən Suriya ordusu artıq nəzarət etdiyi bölgələri qoruyub saxlaya bilmir. Üstəlik, son bir ildə qüvvələrini və xarici dəstəyini artıran müxalif qruplar daha da güclənmiş və yenilənmiş şəkildə savaşa qatılırlar. Hazırda Suriya ərazilərinin yarıdan çoxu İŞİD-in nəzarəti altındadır. Ölkənin şimal ərazilərinə kürdlər, islamçı qruplar nəzarət edir. Cənubda isə ASO və islamçı qruplar və "ən-Nusra" fəaldır. Hətta paytaxt Dəməşqin bir neçə kilometrliyində yaşayış məntəqələri islamçı qrupların nəzarətindədir. Dəməşqə ən yaxın mövqelərdən Bəşər Əsədin sarayına 7 kilometr məsafə var.

Yeni döyüş cəbhəsi xeyli dərəcədə qarışıq və mürəkkəbdir. Ancaq Bəşər Əsədin durumunu daha da ağırlaşdıran xarici faktorlar da az deyil. Qərb mediası Suriya hakimiyyətinin əsas dəstəkçilərindən olan Rusiyanın hazırda ərəb ölkələri, xüsusən də BƏƏ və digər körfəz ölkələri ilə danışıqlar apardığını, Suriyadakı hərbçiləri və təlimatçılarını geri çağırdığı haqda xəbər yayır. Hələlik, təsdiqlənməyən məlumatlara əsasən, Rusiyanın Dəməşqdəki səfirliyinə ötən həftə həyata keçirilən raket atəşindən sonra Moskva səfirliyin bir çox əməkdaşlarını Suriyadan təxliyə edib. Doğrudur, hələlik Rusiya Əsəd mövzusunda mövqeyini dəyişdirdiyini göstərən hansısa bir açıqlama verməyib.

Ancaq Suriya ordusunun və dəstək qüvvələrinin döyüş cəbhəsində geriləməsi Əsədə olan dəstəyin azalması kimi yozulur. Hətta hazırda davam edən danışıqlarda İraqda olduğu kimi Suriyada da bölünməsi, ölkənin şimal ərazilərində yeni "ələvi dövlətinin" yaradılması məsələlərinin gündəm təşkil etdiyi versiyaları ortaya atılıb. Bir sıra müşahidəçilərə görə, Qərb Rusiya ilə "Ukrayna əvəzinə Suriya" bazarlığı mövzusunda anlaşıb. Yəni Donetsk, Donbas və Krımın itirilməsi qarşılığında Rusiya Suriyada hakimiyyət dəyişikliyinə razılaşdığı yönündə təxminlər var.

Lakin bütün bunlar hələlik yalnız ekspert təxminləri və iddialardır. Suriyada savaş ən ağır şəkildə davam edir. Bir sıra müşahidəçilərə görə, Suriya hakimiyyəti var gücü ilə müqavimət göstərməyə çalışır və son hadisələr əslində taktiki gedişdir. Məsələ burasındadır ki, ötən ay "Hizbullah" hərəkatının lideri Həsən Nəsrullah bəyan edib ki, Suriya hakimiyyətinin qorunması üçün səfərbərlik etməyə hazırlaşır. "Təkfirçiliyi dövrün bəlası" adlandıran qruplaşma lideri Suriyada savaşmayacaqları təqdirdə Livanda savaşmalı olacaqlarını deyib. Bu onu göstərir ki, savaş hələ uzun müddət müqavimət göstərəcək.

Bəşər Əsədin ordunu geri çəkməsi, Türkiyə ilə sərhədlərini müxaliflərə buraxması taktiki gediş kimi təqdim olunur. Oxşar taktikanı Əsəd 2013-cü ildə tətbiq edib. Şimal-Şərq ərazilərindən ordunu qəfil geri çəkən Bəşər Əsəd bununla da bölgədə İŞİD, "ən-Nusra" və kürdlər arasında bölgədə qanlı nüfuz savaşına səbəb olmuşdu. Məhz Suriya ordusunun çəkilməsinin ardınca sadalanan qruplar Suriya-Türkiyə sərhədlərində nəzarəti ələ almaq uğurunda "ən-Nusra" və İŞİD arşında, ardınca isə İŞİD və YPG arasında qanlı savaşlar başladı. Həmin vaxt ilk günlərdə bu hadisə Əsədin məğlub olub geri çəkilməsi kimi yozulsa da, sonradan bunun uğurlu hərbi taktika olduğu, hakimiyyətin gücünü qorumasına səbəb olduğu aydın oldu.

İndi də qəflətən Bəşər Əsəd şimal-qərb bölgəsində İdlibdən çəkilməsi müxaliflərin uğuru, hökumətin məğlubiyyəti kimi qəbul olunur. Hətta bir sıra ekspertlər yaxın dövrdə Suriya ordusunun Deyr əz-Zor və ya cənubda Dəra kimi bölgələrdən də çəkilə biləcəyi ehtimal olunur. Bununla da bölgənin müxaliflərin nəzarəti altına düşəcəyi və bu zaman istər-istəməz İŞİD və "ən-Nusra" kimi qatı düşmənlər arasında nüfuz savaşının başlaması qaçılmaz olacaq. Yeri gəlmişkən, iki gün əvvəl Türkiyə-Suriya sərhədlərinə İŞİD-in yerləşdiyi ilə bağlı xəbərlər yayılıb.

Hazırda görünən ordu ki, Bəşər Əsədə sadiq ordu və könüllü birliklər daha çox ölkənin mərkəzinə doğru geri çəkilir. Bu çəkilmə hərbi taktiki gediş də ola bilər, müxaliflərin təzyiqi qarşısında tab gətirə bilməyən ordunun öz gücünü qoruması cəhdi də. Ancaq tezliklə ordunun tərk etdiyi bölgələrdə müxalif qruplar arşında savaşın başlaması növbəti geriçəkilmənin də Əsədin hərbi manevri olduğu təsdiqlənəcək.

Ancaq istənilən halda 4 ildən artıqdır davam edən bu savaş ölkəni tamamilə dağıdıb, xalq yorğun düşüb. Gündən günə savaş daha da ağır şərtlər altında aparılır. 4 ilin nəticələri göstərir ki, tərəflərin heç biri həlledici qələbə qazanmaq gücündə deyil. Suriyada terrorun və daxilin savaşın başa çatması üçün beynəlxalq güclərin Suriya mövzusunda bütün tərəflərin iştirakı ilə sülh sazişi imzalanmalıdır. Hələliksə bu uzlaşmanın işartıları görünmür. Eyni zamanda Suriya müxalifətinin yekcins olmaması, müxtəlif ölkələrin təsiri altında olan qüvvələri mövcudluğu ortaq razılaşmanın əldə olunması imkanlarını azaldır. Rusiya və ya Qərbin təktərəfli sülh danışıqları cəhdləri isə bir qayda olaraq uğursuzluqla nəticələnir. Görünən odur ki, savaşın bitməsi üçün klassik qayda, yəni tərəflərin birinin məğlubiyyəti lazım gələcək.

❑ KƏNAN

# Rusiyada miqrantlara qan udduran skinhedlər hara yoxa çıxıb?



## **Arzu Nağıyev:** "Hakimiyyətin marağı olarsa, onlar yenidən peyda ola bilərlər..."

**2000-ci illərin əvvəllərindən etibarən Rusiyada miqrantların, sözün əsl mənasında, qəniminə çevrilən skinhedlər xeyli müddətdir sanki yoxa çıxıblar. Bir zamanlar Moskvada və bütövlükdə Rusiyanın (eləcə də Ukraynanın) iri şəhərlərində "at oynadan", gəlmələrə hücum edərək onları döyən, öldürən radikal rus millətçiləri artıq gözə dəymir. Hər halda, xəbərlərdə onlardan bəhs olunmur.**

Halbuki hətta belə desək, iki il əvvələdək onlar Rusiyanın əsas xəbər başlıqlarında yer alırdılar. Qəribə də olsa Rusiya polisi və təhlükəsizlik orqanları onlara qarşı xeyli dərəcədə güzəştli davranırdılar. Çox zaman skinhed törətdiyi cinayətlərə görə həbs olunmurdu, həbs olunanlar isə yüngül cəzalarla canlarını qurtarırdılar.

Qeyd edək ki, skinhed, yəni tərcümədə keçəl baş, dazbaş mənasını verən cərəyan ötən əsrin 60-cı illərində İngiltərədə yaranıb. Daha çox xüsusi geyim və saç düzümü ilə seçilən bu adamlar yeni mədəniyyət axınını təmsil edirdilər. Ancaq sonradan bu cərəyan genişləndi və radikal, solçu, faşist görüşlü qruplar yarandı. Rusiyadakı skinhedlər isə "gəlmələrin" "Böyük Rusiyada at oynatmasına" qarşı müqavimət gücü kimi özlərini təqdim edərək miqrantlara qarşı hücumlar təşkil edirdilər.

Ancaq maraqlıdır ki, son iki ildə skinhedlər sanki yoxa çıxıblar. Miqrantlara hücumlar barədə də hər hansı xəbər yoxdur. Politoloq, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, bu cür radikal qruplar bir qayda olaraq dövlət qurumlarının nəzarəti altında fəaliyyət göstərir. Onların fəallaşması da dövlətin maraqlarına bağlı olur: "Bu skinhed və adını millətçi qoyan bir sıra qurumlar həmişə nəzarət altında fəaliyyət göstəriblər. Düzdür, bəzən hədlərini də aşıblar. Ancaq əsasən dövlətin aşıq şəkildə deyə bilmədiyi, edə bilmədiklərini bunlara etdiriblər. Məsələn, ABŞ-da Kuklus Klan, Almaniyada neofaşistlər, İsraildə radikal dindarlar, Türkiyədə radikal millətçilər və sair. Bunlar həmişə olub və olacaqlar da".

Hazırda skinhedlərin sakitləşməsi və belə demək olarsa, "yer altına çəkilməsi" Rusiyadakı vəziyyətlə bağlıdır. Lakin ekspertin fikrincə, bu, aldadıcı ola bilər. Yəni istənilən halda onlar yenidən fəallaşa bilərlər: "Son vaxtlar dövlət tərəfindən bir sıra hay-küylü məhkəmələr quruldu və bir az geri çəkildilər. Lakin bu, bir blef idi. Əsas məsələ odur ki, miqrasiya məsələlərinin tənzimlənməsi istiqamətində qanunlar sərtləşdi və pullu xidmətlər çoxaldı və artıq bu qurumlara o qədər də ehtiyac qalmadı. Lakin bu, onların heç də tam ləğvi deyil".

A.Nağıyev deyir ki, hakimiyyətin marağı olarsa skinhedlər yenidən dirçələ bilər. Ancaq politoloqun maraq doğuran ehtimalı var, A.Nağıyev skinhedlərin Ukraynadakı münaqişə bölgələrinə göndərilə biləcəyini düşünür: "Bəzən mənim şübhələrim olur ki, onları Ukraynada və Donbasda istifadə edirlər. Yəni "başqa vaxt vətənpərvər demirsiniz, indi şərait var, gedin savaşın". Çünki bunlar özlərini çox aqressiv aparırlar".

A.Nağıyevə görə, skinhed və digər millətçi qrupları hakimiyyət özü birbaşa yaratmasa da, sınaqdan keçmiş qaydalara əsasən, hakimiyyətlər bu cür meyllərdən öz maraqları üçün faydalanır: "Təbii ki, Putin birbaşa demir ki, gedin millətçi təşkilat yaradın. Belə bir quruma ehtiyac olanda zəruri hal kimi göstəriş verilir və yerinə yetirilir. Birinin adını kazaklar qoyurlar, biri atman dəstəsi olur. Məqsəd və şüar isə dəyişməzdir - Rusiya ruslar üçün. Hər şey zərurətdən doğur və istənilən tələbat vəziyyəti bu qrupları yenidən ortaya çıxa bilər".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

# Yerkökü xərçəngi müalicə edir, amma...

## Təbii üsullarla müalicə eksperti: "Şiş xəstəliklərini tamamilə sağaldan bitki yoxdur..."

**Yerkökü tərəvəzinin xərçəng xəstəliyini tamamilə sağaltması barədə məlumatlar yayılıb. Belə ki, çoxsaylı uşaq kitablarının müəllifi Enn Kameron bədxassəli bağırsaq xəstəliyinin üçüncü mərhələsində olarkən yerkökü şirəsindən istifadə etdiyini və tamamilə sağaldığı barədə "Kökün köməyi ilə xərçəngin müalicəsi" adlı kitabını nəşr edib.**



Dünyaca məşhur yazıçı Enn Kameron kitabında yoğun bağırsağında xərçəngin olmasını eşitdikdə bərk sarsıldığını, xəstəliyinin dördüncü, ən təhlükəli zamanında yerkökündən istifadə edərək tamamilə sağaldığını yazıb: "Məndə yoğun bağırsaqda xərçəngin üçüncü mərhələsi idi. Lakin kimyaterapiyadan imtina etdim. Çünki ərim ağciyər xərçəngindən 2005-ci ildə kimyaterapiya başlananda ölmüşdü. Digər tərəfdən isə mən xəstəxanada ölmək istəmirdim, üstəlik, özümü yaxşı hiss edirdim. Lakin altı aydan sonra xərçəng ağciyərlərimə də yayıldı və onun dördüncü - ən yüksək mərhələdə olduğu təsdiq edildi. Məlumdur ki, kökün tərkibində xərçəng şişlərinin inkişafının qarşısını alan karotin maddəsi var. Həmin vaxt əlimə bir yazı keçdi. Orada dəri xərçəngi diaqnozu qoyulmuş bir kişinin gündə təxminən iki litr kök şirəsi içməklə özünü müalicə etdiyi bildirilirdi. Qərara gəldim ki, bu, mənim şansımdır".

E.Kameron yerkökü şirəsini içməyə başlayandan sonra səkkizinci həftədə orqanizmindəki şişin inkişafının dayandığını deyib. Dörd aydan sonra isə şiş kiçilməyə başlayıb və onun ağciyərləri xərçəngdən təmizlənib. Səkkiz aydan sonra isə həkimlər xərçəngin tamamilə yoxa çıxdığını bildiriblər. Bunu bir neçə klinikanın müayinəsi də təsdiqləyib.

Tanınmış həkim, təbii üsullarla müalicə eksperti Seyfəddin Əsəd "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, orqanizm üçün kifayət qədər faydalı olmasına baxmayaraq heç bir meyvə və tərəvəz xərçəng xəstəliyini tamamilə sağalda bilməz: "Yerkökünün tərkibində karotin var. Amma balqabaqda bu maddə yerkökündən 5 dəfə çoxdur. Onun içərisinə zeytun yağı artırılarsa, "C" vitamini "A" vitamininə çevrilir. Bunun da orqanizmə çoxlu faydası var. Həm balqabağın, həm də yerkökünün tərkibi "C" vitamini ilə zəngin olduğundan şiş xəstəliyinin qarşısını almaq üçün faydalıdır. Lakin şiş xəstəlilərini tamamilə sağaldan bitki yoxdur".

Seyfəddin Əsəd xərçəng xəstəliklərinin qarşısını alan digər faydalı bitki və meyvələrdən də danışıb: "Dərmanla deyil, təbii şəkildə yetişdirilən pomidordan çox istifadə kişilərdə tez-tez rast gəlinən prostat vəzni xərçənginə yoluxmaq riskini xeyli azaldır. Bundan başqa, şiş xərçənginin qarşısını alan faydalı meyvələr də var. Məsələn, qoz, fındıq, püstə, noxud və s. Bu siyahıda ərik tumunun da adını çəkə bilərəm. Ümumiyyətlə, ərik tumu qiymətli maddələr mənbəyidir. Buna görə də çalışmaq lazımdır ki, meyvə-tərəvəzdən çox istifadə edilsin. O halda müxtəlif xəstəliklərin qarşısını almış olarıq".

Qeyd edək ki, bundan öncə də yerkökünün tərkibində olan beta-karotin adlı maddənin ağciyər xərçənginin qarşısını almaqda yardımçı olması barədə araşdırmalar olub. Məlum olub ki, yerkökündən çox istifadə bağırsaq xərçəngi riskini 24 % azaldır. Mütəxəssislər onu da bildirirlər ki, ürək xəstəliklərindən əziyyət çəkən insanlar yerkökü bitkisindən çox istifadə etməlidir. Belə ki, bu bitki infarkt riskini də azaldır. Davamlı yerkökü yemək saçları, dırnaqları və dərini gücləndirir, orqanizmi infeksiyalara qarşı daha dözümlü edir, cinsi fəallığı artırır və görməni gücləndirir.

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**








## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**
**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**
**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

YENİ MÜSAVAT
N 119 (6147) 3 iyun 2015

# “Oyunlar zolağı” yol qəzalarını artırır?

## DYP rəsmisi təkzib edir, ekspertlər isə qanunların tələbini şərh etdilər...

**Xəbər verildiyi kimi, mayın 29-dan etibarən Bakıda Avropa Oyunları ilə əlaqədar sarı xətlə işarələnmiş “Oyunlar zolağı”na nəqliyyat vasitələrinin girişinə rəsmən qadağa qoyulub. Sarı xəttin üzərinə çıxan sürücülər barəsində dərhal protokol tətbiq olunur. Zolaqlar “Bakı-2015" loqosu ilə işarələnib.**

Bir ay öncədən KİV-lər vasitəsilə xəbərdarlıq olunmasına baxmayaraq, hər keçən gün cərimələnən sürücülərin sayı artmaqdadır. Müvafiq olaraq 40 manat məbləğində cərimə tətbiq olunur.

Qadağa qüvvəyə minən gündən etibarən Bakı yollarında tıxacların sayı artıb. Bundan başqa, qəzaların da sayında artım özünü göstərir. Xüsusən də Ziya Bünyadov prospektində son iki-üç gündə qəzalar çoxalıb. Sürücülər hesab edir ki, bu qəzaların artmasında psixoloji amillər də rol oynayır. Belə ki, aylardır sürətli yollarda hərəkət etməyə alışmış sürücülər üçün birdən-birə daralmış yolda irəliləmək çətindir. Bundan başqa, sürəti tənzimləmənin çətinliyi, darıxdırıcı istilərin vermiş olduğu əsəb də qəzaların artımında rol oynayır.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, hər gün bu mövzu ilə bağlı mediadan onlara müraciət edilir:"Biz əhaliyə müraciət edərək nəqliyyatdan mümkün qədər az istifadə etmələrini tövsiyə etmişik. Hazırda isə rayon qeydiyyatı olan maşınların şəhərə girişinə qadağa qoyulub. Bu səbəbdən də sıxlıq daha az olacaq".

Müsahibimiz qadağa zolaqlarının yol qəzalarının sayının artmasına təsir göstərməsi ilə bağlı deyilənləri isə təkzib etdi. Dedi ki, bu, tamamilə yanlış məlumatdır, çünki statistika fərqli rəqəmlər deyir: “Əgər statistikaya müraciət etsək, təkcə may ayı ərzində baş verən qəzalarda ölənlərin sayı 50 nəfər azalıb. Böyük göstəricidir. Nisbətən sıxlığın yaranması qəzanın baş verməsinə səbəb ola bilməz. Sürət azalanda qəzaların sayı azalır. Qəza olsa belə, burada yüngül xəsarətdən söhbət gedə bilər, ölüm isə sıfıra bərabərdir”.

K.Əliyevin dediyinə görə, mayın 29-30-da sözügedən yollarda sıxlıq müşahidə olunub və buna səbəb son zəngin olması, yük avtomobillərinin hərəkətinə qadağa qoyulmaması olub. Amma iyunun 1-dən çəkisi 3.5 tondan yuxarı olan yük avtomobillərinin şəhərə girişinə və hərəkətinə qadağa qoyulub. Bundan başqa, digər rayonlarda qeydiyyatda olan minik avtomobillərinin də şəhərə girişinə qadağa qoyulub. Bu da sıxlığın azalmasına təsir göstərəcək: “O zolaqdan əlavə, sürücülərin istifadəsində iki zolaq var. Doğrudur, bəzi körpü və tunellərdə bir zolaq var. Orda hərəkət sürəti 60-80 km-dir. Amma sürücülərə məsləhət görürəm ki, bir zolaq olan yerdə bir-birinə güzəştə getsinlər.

Əslində sürücülərə oyunlardan öncə bu qadağanın tətbiq olunması təsadüfi deyil. Sürücülər bu müddət ərzində bu cür hərəkətə öyrəşməlidir. O idman komplekslərinə həm gələn idmançıların məşqi, həm də digər xidmətlərin görülməsi nəzərə alınıb. Avropa Oyunlarına cəlb olunmuş digər avtomobillərin hərəkəti



var. Onların rahat, fasiləsiz hərəkətini təmin etmək üçün planlaşdırılıb, bu iyulun 1-də yekunlaşacaq".

DYP rəsmisi dedi ki, sürücülər hər zaman rahat yol seçmək istəyirlər və bu, anlaşılandır. Ziya Bünyadov prospektində hərəkət etməyə üstünlük verən sürücülər qadağa zolağına görə hazırda hərəkətin sürətini azaltmağa məcbur olur: “Kimsə ya tələsir, ya onunçün o sıxlıq narahatçılıq yaradırsa, digər küçələrdən istifadə etsinlər. Babək, Heydər Əliyev prospekti var və bunlar alternativ yollar sayılır. Sürücülər bundan istifadə etsinlər”.

“DYP-nin rayon nömrəsi ilə olan avtomobilləri Bakıya buraxmamağa dair tətbiq etdikləri məhdudiyyət konstitusiyaya ziddir və heç bir qanuni əsası yoxdur”. Bunu isə hüquqşünas Ələsgər Məmmədli deyir. Onun sözlərinə görə, konstitusiyanın 28-ci maddəsinin III bəndində bu barədə xüsusi detal var: “ Orada qeyd edilir ki, qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər...”. Odur ki, kim bu problemlə qarşılaşsa, dərhal məhkəməyə müraciət etsin. Konstitusiyanın 25-ci maddəsi mənşəyindən, sosial mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq bərabərliyinə təminat verib: “İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır”. Konstitusiyaya görə “71-VI. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir”. 71-ci maddəyə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Yəni bu qərarı qəbul edən icra qurumları dərk etməlidirlər ki, onlar Konstitusiyanın normalarına zidd qayda qoya bilməzlər. Konstitusiyanın 71-ci maddəsinin IX bəndinə görə, qanunsuz əmrə əməl edilməməlidir.

Ə.Məmmədli həmçinin qeyd edib ki, “Yol hərəkəti haqqında” qanunda da bu ayrı-seçkilikçi qadağanın tətbiqini mümkün edən heç bir norma yoxdur: “Hərəkəti kökündən məhdudlaşdırmaq mümkün deyil. Hərəkət ancaq, məhdud səbəblərlə, və müvəqqəti hər kəs üçün məhdudlaşa bilər. Bu zaman da ”...dolayı yol ilə yol hərəkətinin təşkil edilməsinə dair tədbirləri həyata keçirməlidirlər".

Hüquqşünasın sözlərinə görə, qanunları tətbiq edən polislər də qanunsuz əmrlərin icrasına görə məsuliyyət daşıyırlar: “Konstitusiyanı, qanunları pozaraq tətbiq edilən qadağaları vətəndaşlara tətbiq etməniz, sizlər üçün də məsuliyyət yaradır. Gəlin, hər birimiz hüquqa əməl edək, hüquqları müqəddəs hesab edək və onları qoruyaq. Hər birimizə bir gün ədalət lazım olacaq. O gün gəldiyində ədaləti tapmamız üçün, bu gün adil olmalı, hüququn üstünlüyünə boyun əyməliyik. Hüquq əllərə tutuşdurulan qanunsuz əmrlər, qərarlar deyil. Hüquq toplumu ədalətlə yönətləcək adil qaydaların bütünüdür”.

❑ **Sevinc TELMANQIZI**

# Avtomobili rayon qeydiyyatında olanların hüququ pozulurmu?

## Ərşad Hüseynov: “Əsas diqqəti bu tədbirlərin zəruriliyi məsələsinə yönəldərək nəticə çıxarmağımız daha rahat və praqmatik olar”

**İyunun 1-dən etibarən rayon qeydiyyatında, eləcə də Sumqayıt şəhərində və Abşeron rayonu qeydiyyatında olan avtomobillərin Bakıya girişi qadağan edilib. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev mətbuata verdiyi məlumatda bildirib ki, bu addımı atmaqda məqsəd sürücülərin rahatlığını təmin etməkdir: “Bir neçə gün sonra Bakı-Sumqayıt qatar yolu istifadəyə veriləcək. Bölgələrdən gələn minik maşınlarının isə şəhər ətrafında saxlanılması üçün dayanacaqlar var. Bu, I Avropa Oyunları zamanı əhalinin rahatlığı üçün düşünülmüş bir addımdır. Bakı qeydiyyatında olan bütün avtomobillər isə şəhərdə rahatlıqla hərəkət edəcək”.**

Bu qadağa avtomobili rayon qeydiyyatında olan şəxslərin narazılığına səbəb olub. Bir çox hüquqşünaslar bu qaydaların vətəndaşların hüququnu pozduğunu bildiriblər. “Yeni Müsavat” olaraq biz də bu qadağanı ekspertlərlə dəyərləndirməyə çalışdıq. Ekspertlər də etiraf etdi ki, şəhərdə sıxlığın azalması baxımından bu qaydalar effektli olsa da, vətəndaşların azad hərəkət hüququnu pozur.

Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli açıqlamasında bildirib ki, bu qadağaların tətbiqi vətəndaşların konstitusion hüququnu pozur: “Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunub ki, insanların ölkə daxilində istənilən yerdə hərəkətini məhdudlaşdırmaq olmaz. Vətəndaşların hüquqları baxımından məsələyə yanaşsaq, rayon qeydiyyatında olan avtomobillərin şəhərə buraxılmaması, onlar üçün xüsusi dayanacaq yaradılması və avtomobillərin oraya toplanması sürücülərin hüquqlarını məhdudlaşdırır. Bir şeyi də nəzərə almaq lazımdır ki, Bakıya xəstəsi ilə gələn insanlar var,




təcili işlərlə bağlı paytaxta gəlmək istəyən insanlar var ki, onların hərəkətinə qadağa qoyulması ağır nəticələrə səbəb ola bilər. Ancaq burada bir istisna hal var ki, söhbət beynəlxalq miqyasda tədbirin həyata keçirilməsindən, bu zaman Bakıda sıxlığın azaldılmasından söhbət gedirsə, burada müəyyən zaman kəsimlərində məhdudlaşmadan söhbət gedə bilər. Məsələn, yük avtomobillərinin giriş-çıxışına əsasən axşam saatlarında icazə verilir. Bakıya ərzaq məhsulları gətirən, müxtəlif firmaların məhsullarını paytaxta daşıyan avtomobillər var ki, onların hərəkətinə tamamilə deyil, gündüz saatlarında məhdudiyyət qoyulması başadüşüləndir. Qadağalar qoyulsa belə, burada müəyyən yumşaldıcı şərtlər olmalı idi”.

Ekspert onu da qeyd etdi ki, şəhərdə nəqliyyatın hərəkətinin tənzimlənməsi baxımından atılan addımlardan bəziləri başadüşüləndir: “Yollarda Avropa Oyunları üçün zolaqlar ayrılıb. Bu da oyunlar zamanı hərəkəti asanlaşdıracaq. Ancaq tətbiq olunan bu qadağalar heç bir qanuna əsaslanmır. "Yol hərəkəti haqqında" qanunda və digər qanunlarda elə bir hal nəzərdə tutulmayıb ki, rayon qeydiyyatında olan minik avtomobillərinin şəhərə giriş-çıxışını qadağan etsin. Yalnız müvəqqəti olaraq fərmanlar verilə bilər ki, bu müddətdə hərəkət məhdudlaşdırılsın. Bugünkü tətbiq olunan qadağalar da məhz Azərbaycan Dövlət Yol Polisi və eyni zamanda Nəqliyyat Nazirliyinin yaratdığı qaydalara əsaslanır. Bu qaydalar üçün konkret zaman yoxdur, məqama uyğun olaraq tətbiq oluna bilər. Həmin qaydalar da vətəndaşların hüquqlarının pozulmaması şərtilə həyata keçirilməlidir. Beynəlxalq təcrübədə bu tipli hallara rast gəlinməyib. Xaricdə heç bir tədbirə görə, insanların hansısa şəhərə girişi qadağan olunmayıb”.

Ərşad Hüseynov isə sosial şəbəkədəki səhifəsində bu məsələni belə şərh edib: “Avtomobillərin Bakı şəhərinə daxil olmasının qarşısının alınması, habelə Oyunlar zolağında hərəkətlə bağlı suallar artmaqdadır. Bu sualları verənlərə və bu məsələ ilə maraqlananlara ümumi şəkildə bunları demək istəyirəm ki, gəlin həmin məhdudiyyət tədbirlərinin hüquqi xırdalıqlarını axtarmağı kənara qoyaq. Məncə, bunun müzakirəsinin əhəmiyyəti yoxdur. Əsas diqqəti bu tədbirlərin zəruriliyi məsələsinə yönəldərək nəticə çıxarmağımız daha rahat və praqmatik olar. Ona görə də heç kəs xüsusi narahatçılıq keçirməsin, ilk günlərdə müəyyən gərginlik olsa da, yaxın günlərdə hər şey təbii axarına düşəcək, çünki hər kəs yaranmış şəraitdə özü üçün fərdi çıxış yolu tapmağa məcburdur və bunu tapacaq. Təsadüfi deyil ki, məhdudiyyətlər Oyunlara 10 gün qalmışdan tətbiq edilməyə başlayıb. Hədəf də odur ki, hər kəsin özünə sərf edən, şəraitə uyğun və rahat olan davranış variantı seçməsinə imkan olsun.

Bununla bağlı yalnız üç tövsiyəmi verə bilərəm:

1. İstər Bakı şəhərində, istərsə də Bakıya gələrkən fərdi avtomobillərinizdən istifadəni bu 1 ay müddətində minimuma endirin. Bu, xüsusən rayonlarda yaşayanlar üçün vacibdir.

2. Əgər fərdi avtomobildən istifadə qaçılmazdırsa, onda elə hərəkət marşrutu seçməyə çalışın ki, Oyunlar zolağı olan yollardan keçməli olmayasınız.

3. Oyunlar zolağı olan yollardan keçmək də qaçılmazdırsa, onda həmin zolaqlara daxil olmayın, sadəcə, səbrli və diqqətli olun.

Çalışın ki, özünüzə və başqalarına problem yaratmayın. Məncə, hər kəs bir az fikirləşsə, özü üçün şəraitə uyğun çıxış yolunu tapacaq".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
Son səhifə
N 119 (6147) 3 iyun 2015

# Ən yaşlı qadın marafonçu...




Amerikanın Şarlot şəhərində yaşayan Harriette Tomson adlı 92 yaşlı qadın San-Dieqoda gerçəkləşdirilən "Rok in Roll" marafonunu bitirərək "ən yaşlı qadın marafonçu" ünvanını qazanıb. Marafonu 7 saat 24 dəqiqə 36 saniyədə tamamlayan Tomson makiyajı ilə də diqqət çəkib. Daha öncəki rekord 2010-cu ildə marafon qaçan 92 yaşlı Qladi Burilə aid idi. Bu günə qədər 16 dəfə marafon qaçan Tomson 2 dəfə xərçəng xəstəliyini yenib. Tomson uzun və sağlıqlı yaşamağın sirrinin, sadəcə, hər an yaxşı düşünmək olduğunu deyib.



## Saqqal kəsmək qadağan edildi

İŞİD terror qruplaşmasının tətbiq etdiyi qadağalara daha biri əlavə edilib. İŞİD silahlıları təxminən bir ildir nəzarətdə saxladıqları İraqın Mosul şəhərində saqqal kəsilməsini qadağan edib. Bu barədə "Frans Press" xəbər agentliyi yayıb. Xəbərdə bildirilir ki, qadağa dünəndən etibarən qüvvəyə minib. İŞİD-çilər şəhər əhalisinə saqqal kəsdirməyin günah olduğunu və üzünü təraş edənlərin cəzalanacağını göstərən broşürlar paylayıb. Cildində problemlər olanlar saqqal saxlaya bilmədikləri barədə İŞİD-in polislərinə xəbər versələr də, onların bu şikayətlərinə baxılmayıb və qadağanın hamı üçün vacib olduğu vurğulanıb.

Qeyd edək ki, İŞİD-çilərin bundan əvvəl şəhərdə tətbiq etdiyi qaydaya əsasən namaz vaxtları dükanlar bağlanmalı idi.



## 700 kiloluq uçurtma camaatın üstünə düşdü

Yaponiyada uzunluğu 13 metr, eni isə 12 metr olan çərpələng bir neçə nəfərin yaralanmasına səbəb olub. 700 kiloqram ağırlığındakı qurğu onu izləyən camaatın üzərinə düşüb. 73 yaşlı kişi ağır yaralanıb və uzun müddət özünə gələ bilməyib. Ondan başqa aralarında 7 yaşlı uşağın da olduğu 3 nəfər də yaralanıb. Yerli mediada yayılan xəbərlərə görə, polislər təşkilatçıları məsuliyyətsizliyə görə nəzarətə götürüb.

## Xərçəngin yeni müalicə üsulu tapıldı

Britaniyalı alimlər əsrin bəlası hesab edilən xərçəng xəstəliyinin müalicəsində yeni üsul tapdıqlarını elan ediblər. Ekspertlər xərçəng xəstəliyinin yeni müalicə üsulunu bu sahədə kimyaterapiyanın yaranmağından indiyədək əldə edilən ən böyük irəliləyiş adlandırırlar. Yenilik 5 ildən sonra kimyaterapiyanı əvəz edə biləcək. Yeni kəşf edilmiş immunoterapiya metodu orqanizmin kimyaterapiya və digər dərmanları qeyri-effektiv edərək, özünə müdafiə yaradan xərçəng hüceyrələrinə hücum etməkdən ibarətdir. Böyük Britaniyada 950 nəfərin iştirak etdiyi təcrübə yeni metodun tətbiqi ilə xərçəng hüceyrələrinin azaldığını və ya nəzarət altına alındığını göstərib. Yeni üsulu sınayanlardan biri də 61 yaşlı Viki Braun olub. Ona həkimlər 2013-cü ildə dəri xərçəngi diaqnozu qoyublar. Qadının bir neçə ay ömrü qaldığı bildirilib. Lakin yeni üsuldan istifadə sayəsində o iki il keçməsinə baxmayaraq, hələ də sağdır. İmmunoterapiya sayəsində xəstənin orqanizmində olan bədxassəli şiş bir neçə ayda tamamilə yox oub. Xəstəlik təkrarlansa da, eyni üsuldan ikinci dəfə istifadə də effektiv nəticə verib. İndi həkimlər üçüncü dəfə meydana çıxan xərçəngə qarşı eyni üsulla mübarizəyə hazırlaşırlar.





## İtmiş çantadan 400 min avro çıxdı

Serbiyanın paytaxtı Belqradda Nikola Tesla hava limanında bir neçə gün əvvəl unudulmuş bir çantadan 400 min avro çıxıb. Gömrük rəhbərliyindən verilən açıqlamaya görə, 46 yaşlı Sloveniya vətəndaşı Z.D-yə aid çantanın içindəki pulun sahibi gəldiyi zaman təsbit edilmədiyi məlum olub. Çanta sahibi pulları götürmək üçün gəldikdə orada, sadəcə, şəxsi əşyaları olduğunu deyib. Gömrük müdirləri isə çantanın içindəki 400 min avronu gördüyü zaman şoka düşüb. Z.D. isə polislərə verdiyi ifadədə də pulu 10 il əvvəl şans oyunlarında qazandığını deyib. Qanuni olaraq öz ölkəsinə 10 min avro apara biləcək olan Z.D. geridə qalan 390 min avronu ala bilmək üçün məhkəmənin qərarını gözləyir.




QOÇ - Bəxtinizdə çox düşərli bir təqvim dayanıb. Odur ki, nəyəsə cəhd edərkən hər an Ulu Tanrını başınız üzərində hiss edin. Yalnız bu halda özünüzü xoşbəxt hiss edəcəksiniz.

BUĞA - Ulduzların düzümü enerjinizi daha çox fəaliyyət istiqamətinə yönəltməyi tövsiyə edir. Qarşılıqlı münasibətlərdə isə bacardığınız qədər ehtiyatlı olmalısınız. Çılğınlıq etməyin.

ƏKİZLƏR - Hədsiz dərəcədə uğurlu gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətinə yetişəcəksiniz. Maraqlı təkliflər, şəxsi büdcədə artım ovqatınızı xoş edəcək. Amma ən xırda detalları belə nəzərdən qaçırmayın.

XƏRÇƏNG - Ulduzlar günün birinci yarısında qeyri-adi hansısa addımı atmamağı tövsiyə edir. Əks təqdirdə uğurlardan uzaq düşəcəksiniz. Sonrakı saatlarda isə sürprizlə rastlaşma ehtimalınız var.

ŞİR - Qarşınızı kəsən maneələri dəf etmək üçün imkan qazanacaqsınız. Üstəlik, sevgi aləmində sürprizlərlə rastlaşacaqsınız. Səfərə çıxmaq, işgüzar söhbətlər aparmaq isə məsləhət görülmür.

QIZ - Perspektivli sövdələşmələr aparmaq istəyirsinizsə, vaxtı fövtə verməyin. Saat 11-dən başlayaraq paralel şəkildə aktivlik göstərin. Qərarlarınızda qəti olsanız, heç vaxt uduzmayacaqsınız.

TƏRƏZİ - Maddi problemlərinizin qabarmasına baxmayaraq, əsas gücünüzü sevgi amilinə yönəldin. Nəzərə alın ki, sizə ehtiyac duyanlar xoş bir sözünüzlə də kifayətlənə bilərlər. Səfərə isə çıxmayın.

ƏQRƏB - Nahara qədər uğurlu bir zamandan keçəcəksiniz. Hətta çoxdan gözlədiyiniz bir təklif də ala bilərsiniz. Belə fürsəti hər an gözləyin. Təxminən saat 15-dən sonra isə ayıq-sayıqlığınızı artırın.

OXATAN - Qarşılıqlı ünsiyyətdə olduğunuz hər kəslə ciddi davranın. Enerjinizi dedi-qodu və ya cəfəng söhbətlərə itirməyin. Əyalətlərə gedib istirahət etmək indi sizə çox lazımdır.

OĞLAQ - Maraqlı bir təqvim yaşayacağınız güman olunur. Əgər şərait olsa, işlə az məşğul olun. Çünki işdən kənarda daha çox uğurlarınız mümkündür. Bu gün ziyarətgaha getməyiniz yaxşı olar.

SUTÖKƏN - Yaxşı olar ki, əsas işlərə saat 12-dən sonra başlayasınız. Çünki əvvəlki ərəfə bir qədər qalmaqallı keçə bilər. Bu gün nüfuzlu və dəyərli insanlarla görüş keçirmək sizə səmərə verəcək.

BALIQLAR - Təəssüf ki, Göy qübbəsi ixtiyarınızda olan bu təqvimin mübahisəli keçəcəyini bəyan edir. Əlaxüsus da saat 14-17 aralığı əhvalınız pozula bilər. Özünüzü ələ alıb neytral mövqe tutun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 98 yaşını seqveylə qeyd etdi



İngiltərədə yaşayan Qladi Vaver bir neçə gün əvvəl 98 yaşını qeyd edərkən qeyr-adi rekord qırıb. İki təkərli elektrikli daşıyıcı olan seqveydən istifadə edən Vaver bununla hərəkət edən ən yaşlı adam hesab edilir. Yaşlı kişi Devon şəhərində təşkil edilən "Go seqvey" adlı şənlikdə də iştirak edib. Vaver ad gününü qeyd edərkən uşaqları və nəvələri də yanında olub. Q.Vaver "ilk vaxtlarda seqveyin üzərinə minmək çox çətin oldu. Təkrar minəcəyimi düşünmürdüm. Lakin möhtəşəm vaxt keçirdim", - deyə açıqlama verib. 98 yaşlı kişinin 14 nəvəsi, 3 nəticəsi var.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300